Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 66 (8089) CÜMƏ, 29 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycanın yeni rekordları

## İqtisadi-sosial islahatlar konsepsiyası yeni uğurlu nəticələr verir

3 il əvvəl başlanmış islahatların nəticəsi olaraq Azərbaycan iqtisadiyyatı yenidən artım nümayiş etdirir. Hər rübün və ilin iqtisadi yekunları görülən işlərin və yeni təşəbbüslərin hədər getmədiyini göstərir. Bu mərhələdə qarşıya qoyulan əsas məqsəd isə qeyri-neft sektorunun inkişafıdır. 2015-ci ilin sonu və 2016-cı ilin əvvəllərindən Prezident İlham Əliyevin imzaladığı müvafiq fərman və sərəncamlar məhz bu məqsədə xidmət edib.

### ÜDM-də artım davam edir

Ümumiyyətlə, iqtisadiyyatın neftdən asılı olmayaraq inkişafı, sənayeləşmə, bundan irəli gələrək əhalinin sosial rifahının yüksəldilməsi, eləcə də cəmiyyətin bütün istiqamətlərdə tərəqqisini sürətləndirməklə inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq Azərbaycan dövlətinin inkişaf strategiyasının hədəfləridir. Məhz bu strategiyanın uğurla həyata keçirilməsi son 3 ildə Azərbaycanda iqtisadi inkişafı yeni mərhələyə qaldırıb, o cümlədən sənayeləşməni gücləndirib. Aparılan islahatlar və iqtisadiyyatın diversifikasiyası siyasəti nəticəsində qısa müddətdə bu sahədə nailiyyətlər əldə olunub, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, ixrac potensialı yüksək olan rəqabətqabiliyyətli malların istehsalı genişlənib. Bununla da neftin qiymətlərinin hələ də nisbətən aşağı olduğu bir şəraitdə beynəlxalq iqtisadi böhranın yaratdığı çətinliklər dəf edilib. Bir sözlə, həyata keçirilən iqtisadi islahatların nəticəsidir ki, dünyada mürəkkəb proseslərin cərəyan etdiyi bir şəraitdə iqtisadiyyatımızın dayanıqlığı təmin olunub, inkişafına yeni təkan verilməsi üçün möhkəm əsaslar yaranıb.

Təsadüfi deyil ki, 2018-ci il Azərbaycan üçün növbəti uğurlu dövr kimi tarixə düşdü. 2019-cu ilin isə hələlik bir rübü başa çatmaq üzrədir. Lakin görünən odur ki, bu il Azərbaycanda növbəti iqtisadi inkişaf dövrü kimi yadda qalacaq. Bunu təkcə yanvar-fevral aylarında ümumi daxili məhsul istehsalında olan artım da təsdiqləyir. Belə ki, bu ilin ilk iki ayında ölkədə 11 milyard 484,5 milyon manatlıq ümumi daxili məhsul istehsal edilib. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur. ÜDM istehsalının 47,2 faizi sənayenin, 10,1 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrinin, 5,4 faizi tikintinin, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 15,7 faizi digər sahələrin payına düşüb. Əhalinin hər nəfərinə düşən ÜDM 1163,8 manata bərabər olub.

### Sənayenin qeyri-neft sektorunda 15,5 faiz artım var

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2019-cu ilin yanvar-fevral aylarında 7,6 milyard manatlıq və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 15,5 faiz artıb. Prezident İlham Əliyev Novruz bayramı münasibətilə xalqa təbrikində diqqəti buna yönəldərək sənayenin qeyri-neft sektorundakı 15,5 faiz artımın dünya rekordu olduğunu bildirib: *“Bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapacaqdır. İqtisadi artım isə göz qabağındadır. Bu ilin iki ayında ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son illər ərzində ən yüksək göstəricidir. Sənaye istehsalı 4,6 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Ancaq ən böyük artım qeyri-neft sektorunda sənaye istehsalına aiddir. Burada artım 15,5 faizdir. Hesab edirəm ki, bu, dünya rekordudur və son illər ərzində aparılan düşünülmüş ciddi iqtisadi islahatlar siyasətinin nəticəsidir”.*

### 2019-cu il dinamik sosial-iqtisadi inkişaf dövrü olacaq

İslahatların tərkib hissəsi olaraq 2019-cu ilin ilk iki ayında əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində inqilabi addımlar atılıb. Minimum əməkhaqqının, əmək pensiyalarının, bütün növ sosial müavinətlərin, təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması, xarici valyutada götürülmüş kreditlərin artan hissəsinin ödənilməsi barədə qərarın qəbul edilməsi məhz əvvəlki illərdə, xüsusən 2018-ci ildə həyata keçirilən tədbirlər nəticəsində mümkün olub. Təbii ki, sosial sahədə qəbul edilən mühüm qərarlar Azərbaycanın inkişafında yeni bir mərhələnin başlanğıcıdır.

Əlamətdar haldır ki, aparıcı beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin reallaşdırdığı bu islahatları yüksək qiymətləndiriblər. Dünya Bankının “Doing Business-2019” hesabatında biznes mühitinin əlverişliliyinə görə ölkəmiz əvvəlki illərlə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə yüksəlib. Müstəqil Dövlətlər Birliyi ölkələri arasında isə Azərbaycan liderlik mövqeyinə yüksəlmişdir. Ölkəmizin kredit reytinqinə görə də mövqeyi xeyli möhkəmlənib. “Doing Business-2019” hesabatının əhatə etdiyi 10 indikatordan 8-i üzrə öz mövqelərini yaxşılaşdıran Azərbaycan həmçinin dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilib. Digər beynəlxalq reytinq agentliklərinin hesabatlarına görə də Azərbaycanın mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Bütün bunlar ondan xəbər verir ki, Prezident İlham Əliyevin iqtisadi islahatlar konsepsiyası yeni uğurlu nəticələr verir. 2019-cu il isə daha sürətli iqtisadi artım və sosial yüksəliş dövrü kimi yadda qalacaq. Bunun üçün qarşıda duran əsas hədəflər aparılan çoxşaxəli və sistemli sosial-iqtisadi islahatların daha da dərinləşdirilməsinə nail olmaqdır. Qeyri-neft ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlərin davam etdirilməsi, biznes-investisiya mühitinin daha da təkmilləşdirilməsi, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin diqqət mərkəzində saxlanılması aparılan islahatların uğurlu nəticə verməsini təmin edəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# İLHAM ƏLİYEV daha bir problemin həllini şəxsi nəzarətinə götürdü

## Yanğından zərər çəkmiş sahibkarlara Prezidentin tapşırığı ilə dövlət yardımı ediləcək



Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı müşavirədə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Martın 26-da ticarət mərkəzlərinin birində yanğın baş vermişdir. Xoşbəxtlikdən insan itkisi olmamışdır. Ancaq o ticarət mərkəzində çalışan insanlara maddi ziyan dəymişdir. Yanğının səbəbləri araşdırılır, bu gün ilkin məlumat veriləcəkdir və əminəm ki, tam araşdırılacaqdır. Eyni zamanda, biz sahibkarların problemlərini həll etməliyik. Onlar öz iş yerlərini, öz əmlakını itiriblər. Onlara maddi ziyan dəyib. Bəziləri borc alıb və orada malları satışa çıxarıblar. Ona görə, əlbəttə ki, biz bu insanlara dövlət olaraq öz dəstəyimizi göstərəcəyik.

Dünən Nizami Rayon İcra Hakimiyyətində sahibkarlarla görüş keçirilib. Bu gün səhər ikinci görüş keçirilib və onlara deyilib ki, dövlət onlara dəstək və yardım göstərəcəkdir. Belə hadisələr baş verir. Əlbəttə ki, səbəblər tam araşdırılmalıdır və operativ olaraq dövlət sahibkarlara öz maddi yardımını göstərməlidir. İqtisadiyyat Nazirliyi ticarət mərkəzində çalışan sahibkarlarla bir-bir görüşməlidir, onların problemlərini dinləməlidir və onlara dəstək göstərməlidir. Maliyyə Nazirliyi operativ olaraq ilkin maliyyə vəsaiti ayırmalıdır ki, sahibkarlara bu vəsaitin verilməsi təmin edilsin. Bununla bərabər, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi yanmış malların qiymətini sahibkarlarla birlikdə araşdırmalıdır, aydınlaşdırmalıdır və bizdə bu məsələ ilə bağlı dəqiq məlumat olmalıdır.

Adətən inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə burada bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük. Misal üçün, bu yaxınlarda Şamaxı, İsmayıllı, Ağsu rayonlarında baş vermiş zəlzələ nəticəsində minlərlə evə ziyan dəyib və heç bir ev sığortalanmayıb. Təbii ki, dövlət öz dəstəyini göstərir və göstərməlidir. Artıq evlərin tikintisi başlamışdır və bu ayın əvvəlində birinci evlərin vətəndaşlara təqdimetmə mərasimi keçirilmişdir. Bütövlükdə sahibkarlara məsləhət görülür ki, onlar öz əmlakını sığortalatsınlar. Belə olan halda tam əmin ola bilərlər ki, bədbəxt hadisə baş verdikdə onların əmlakı batmayacaq.

Azərbaycan çox güclü sosial siyasət aparır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir. Bildiyiniz kimi, bu ilin əvvəlində çox ciddi və böyük sosial paket təsdiqləndi. Sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan bu proqramla əhatə olunur. Deyə bilərəm ki, dünyada belə bir təşəbbüsün bənzəri yoxdur. Təbii fəlakət - zəlzələ, daşqın vaxtı hər zaman vətəndaşın yanında ilk olan dövlətdir. Bu, bizim siyasətimizdir, biz bu siyasətə sadiqik və bunu bütün sahələrdə aparacağıq. Ona görə, baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik.

Məsələni tam araşdırıb təklifləri vermək üçün komissiya yaradılacaq. Əlbəttə ki, komissiya bir müddət işləyəcək. Ancaq biz operativ olaraq sahibkarlara ilkin mərhələdə maddi dəstək göstərməliyik ki, onlar bu vəziyyətdən çıxa bilsinlər. Gələcəkdə onları işlə təmin etmək üçün müvafiq addımlar atılacaq. O ki qaldı ticarət mərkəzinin sahibkarlarının fəaliyyətinə, əlbəttə ki, onlar dövlət tərəfindən sahibkarlara veriləcək məbləğin ödənilməsini tam təmin etməlidirlər və edəcəklər. Ancaq nəzərə alsaq ki, biz istəyirik məsələ tezliklə öz həllini tapsın, bu məqsədlə, yenə də dediyim kimi, dövlət dərhal öz dəstəyini göstərməlidir.

***Ardı 2-ci səh.***

## Bakı şəhərinin Nizami rayonu ərazisində “Diqlas” ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiyanın yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin mart ayının 26-da Bakı şəhərinin Nizami rayonu ərazisində “Diqlas” ticarət mərkəzində baş vermiş yanğın nəticəsində sahibkarlara külli miqdarda ziyan dəymişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, baş vermiş hadisənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Bakı şəhərinin Nizami rayonu ərazisində “Diqlas” ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiya yaratsın.

1.2. görülmüş işlər haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 mart 2019-cu il*

# 4 amnistiya, 33 əfv

## İlham Əliyev ötən 15 ildə imzaladığı fərman və sərəncamlarla 47 min 442 nəfər məhkuma azadlıq bəxş edib

Bütün dövrlərdə insan haqlarının təminatına və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına xidmət edən əfv və amnistiya aktları cəmiyyətdə olduqca yüksək qiymətləndirilib. Hər bir fərdin mənafeyinin əsas götürüldüyü hüquqi dövlət quruculuğu prinsiplərinə həssas münasibətin əyani təcəssümü olaraq Azərbaycanda məhkumların əfv edilməsi - bağışlanması artıq ənənəyə çevrilib. Demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının müdafiəsinə böyük sayğı göstərən Azərbaycan dövləti cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə də hər zaman həssaslıqla yanaşıb. Elə bu səbəbdəndir ki, Azərbaycanın adı Şərqdə ölüm hökmünü ləğv edən ölkə kimi tarixə düşüb.

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu humanizm ənənələrini davam etdirən Prezident İlham Əliyev hər zaman mərhəmət və insanpərvərlik kimi ən ali keyfiyyətləri əldə rəhbər tutaraq bayramlar ərəfəsində, əlamətdar tarixi günlərdə əfv sərəncamları imzalayır. Dövlət başçısı bu addımları ilə törətdiyi əməldən səmimi peşmançılıq hissi keçirən günahkar şəxslərin islah olunaraq düz yola qayıtması, onların cəzaçəkmə müəssisəsindən çıxdıqdan sonra layiqli vətəndaş kimi azad cəmiyyətə qovuşması, bir daha cinayət əməli törətməməsi üçün şans verir, minlərlə məhkuma yenidən azadlıq bəxş edir.

Elimizin əziz bayramlarından olan Novruz ərəfəsində dövlət tərəfindən atılan sosialyönümlü addımlar, xalqın rifahı üçün verilən qərar və sərəncamlar, əfv sərəncamı hər bir azərbaycanlı ailəsinin bayram sevincini, bayram ovqatını daha da artırdı, çoxsaylı insanlara əsl bayram hədiyyəsi oldu.

***Ardı 4-cü səh.***

# İLHAM ƏLİYEV daha bir problemin həllini şəxsi nəzarətinə götürdü

## Yanğından zərər çəkmiş sahibkarlara Prezidentin tapşırığı ilə dövlət yardımı ediləcək

*Əvvəli 1-ci səh.*



Sonra fövqəladə hallar naziri **Kəmaləddin HEYDƏROV** yanğının başvermə səbəbləri, əhatə dairəsi və həyata keçirilən təxirəsalınmaz tədbirlər barədə Prezident İlham Əliyevə məlumat verdi. Nazir bildirdi ki, hadisədən dərhal sonra operativ olaraq yanğınsöndürənlər hadisə yerinə yaxınlaşıb və ilkin tədbirlər həyata keçirilib.

Yanğının mənbəyinin ticarət mərkəzindən kənarda yerləşən və qanunsuz inşa olunan dönərxanadan başladığını deyən Kəmaləddin Heydərov qeyd etdi ki, yanğının başvermə anı Daxili İşlər Nazirliyinin müşahidə kameralarında da əks olunub. Yanğının söndürülməsinə 35 yanğınsöndürən maşının və 3 helikopterin cəlb olunduğunu deyən nazir bildirdi ki, ticarət mərkəzində yanğın təhlükəsizliyi qaydalarına indiyədək əməl olunmayıb. Kəmaləddin Heydərov dedi ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən 2015-ci ildən başlayaraq ticarət mərkəzinə və rayon icra hakimiyyətinə müvafiq müraciətlərin olunmasına baxmayaraq, burada yanğın təhlükəsizliyi və digər təhlükəsizlik tədbirləri görülməyib və bu məqsədlə tələb olunan hidrantlar qoyulmayıb. Malların anbarlarda düzgün yerləşdirilməməsi və binanın alkaponla üzlənməsi yanğının daha da şiddətlənməsinə səbəb olub.

Nazir hadisənin fəsadlarının aradan qaldırılması və yanğının ətraf binalara keçməməsi üçün bütün lazımi tədbirlərin operativ görüldüyünü vurğuladı. O, hadisənin başvermə səbəblərinin araşdırılması məqsədilə qanunvericiliyə uyğun olaraq zəruri tədbirlərin görüləcəyini və əldə edilən ilkin materialların komissiyaya təqdim ediləcəyini bildirdi.

Baş prokuror **Zakir QARALOV** hadisə baş verən andan müvafiq qurumların birgə səyləri nəticəsində vəziyyətin nəzarətə alındığını, insanların həmin ərazidən təxliyə edildiyini bildirdi. Baş prokuror hadisə ilə bağlı Cinayət Məcəlləsinin 225-ci maddəsi üzrə cinayət işinin qaldırıldığını, yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi və əmtəəşünaslıq ekspertizalarının təyin olunduğunu dedi, qısa vaxtda yaranmış istintaq-əməliyyat qrupu tərəfindən bu ekspertizaların həyata keçiriləcəyini vurğuladı. Zakir Qaralov hadisə ilə bağlı sahibkarların dindirilməsi və ilkin ifadələrinin alınması istiqamətində işlərin görüləcəyini qeyd etdi, istintaqın gedişi ilə bağlı vaxtaşırı dövlət başçısına məlumat veriləcəyini bildirdi.

Daxili işlər naziri **Ramil USUBOV** məlumat verərək dedi ki, yanğın baş verdikdən dərhal sonra Daxili İşlər Nazirliyinin və Baş Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti hadisə yerinə gedib və qarşıda duran vəzifələrlə bağlı operativ tədbirlər görüblər. Belə ki, yol polisi əməkdaşları yanğınsöndürənlərin hadisə yerinə vaxtında və maneəsiz çatmaları üçün lazımi şərait yaradıb, 400 nəfərdən çox polis əməkdaşı hadisə yerində təhlükəsizlik tədbirlərinin təmin olunmasına cəlb edilib, əhalinin oradan uzaqlaşdırılması, nəqliyyatın hərəkətinin məhdudlaşdırılması ilə bağlı zəruri tədbirlər görülüb. Ramil Usubov yanğının baş verməsi ilə bağlı müşahidə kameralarının qeydlərinin müvafiq qurumlara təqdim olunduğunu bildirdi. Dövlət başçısının tapşırığı ilə yaradılan komissiyanın tərkibində Daxili İşlər Nazirliyi əməkdaşlarının da təmsil olunacağını vurğulayan nazir tapşırıqların yüksək səviyyədə həyata keçiriləcəyini qeyd etdi.

İqtisadiyyat naziri **Şahin MUSTAFAYEV** dövlət başçısının tapşırıqlarına uyğun olaraq bir sıra addımların atılacağını bildirdi. Nazir ticarət mərkəzində icarədə olan sahibkarlara dəyən ziyanın müəyyənləşdirilməsi ilə bağlı görüşlərin keçirildiyini və ziyanla əlaqədar ilkin məlumatların alındığını diqqətə çatdırdı. O, sahibkarlara bir neçə istiqamətdə ilkin dövlət dəstəyinin göstəriləcəyini, müəyyən halda güzəştli kreditlərdən istifadə ilə bağlı mexanizm üzərində də işlənildiyini, sahibkarların yeni ticarət mərkəzi tikilənə qədər digər ticarət mərkəzlərində yerləşdirilməsi istiqamətində işlərin aparıldığını vurğuladı.

Nizami Rayon İcra Hakimiyyətinin başçısı **Arif QASIMOV** yanğınla əlaqədar yerli icra hakimiyyəti tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verdi. O, dünən və bu gün sahibkarlarla operativ görüşdüklərini, dəyən ziyanın aradan qaldırılması məqsədilə dövlət tərəfindən ilkin maliyyə dəstəyinin göstərilməsi ilə bağlı Prezidentin tapşırıqlarını onlara çatdırdıqlarını dedi və sahibkarların bu xəbəri yüksək minnətdarlıq hissi ilə qarşıladıqlarını vurğuladı.

* * *

Müşavirəyə yekun vuran Prezident **İlham ƏLİYEV** dedi:

- Bir daha demək istəyirəm ki, ilk növbədə yanğının səbəbləri tam araşdırılmalıdır. İlkin versiyalar var. Kamera müşahidəsi də deməyə əsas verir ki, yanğın haradan başlayıb. Bunu nəzərə alaraq yekun rəy, əlbəttə ki, təqdim olunacaq. Eyni zamanda, bütün ticarət mərkəzlərində ciddi təftiş işləri aparılmalıdır, təhlükəsizlik tədbirləri gücləndirilməlidir. Fövqəladə Hallar Nazirliyi və digər aidiyyəti qurumlar, Bakı Şəhər İcra Hakimiyyəti, rayon, şəhər icra hakimiyyətləri bu işlərlə çox ciddi məşğul olmalıdırlar. Təhlükəsizliklə bağlı olan bütün məsələlər ən yüksək standartlarda təmin edilməlidir.

Sahibkarlara gəldikdə, bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq. Onlara artıq bu məlumat verildi. Maliyyə dəstəyinin göstərilməsi operativ qaydada təşkil edilməlidir və müvafiq göstəriş verilib. Eyni zamanda, burada da qeyd olunduğu kimi, onlara güzəştli şərtlərlə kreditlər verilməlidir, dəymiş ziyan dəqiq hesablanmalıdır. Onların bu gün fəaliyyətdə olan digər ticarət mərkəzlərində yerləşdirilməsi ilə bağlı tədbirlər görülməlidir ki, işsiz qalmasınlar.

Beləliklə, hesab edirəm, görülmüş və görüləcək tədbirlər nəticəsində sahibkarlar bir daha görəcəklər ki, dövlət hər zaman onları dəstəkləyir. Azərbaycanda sahibkarlığın inkişafı geniş vüsət alıb və ölkəmizin gələcək, uzunmüddətli, dayanıqlı inkişafı böyük dərəcədə sahibkarların fəaliyyəti ilə bağlıdır. Azərbaycanda indi sahibkarlar sinfi yaradılıb. Sahibkarlar müxtəlif sahələrdə - həm istehsalda, xidmət və ticarət sektorlarında çox fəal işləyirlər. Əlbəttə ki, dövlət onlara həm siyasi dəstək, həm də maliyyə dəstəyi verir. Bildiyiniz kimi, güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilmişdir. Ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman onların yanındadır və onların yanında olacaqdır.

Qeyd etdiyim kimi, komissiya tezliklə fəaliyyətə başlamalıdır, bütün bu məsələləri araşdırmalıdır və yekun rəy təqdim etməlidir. Sağ olun.

# Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin şəxsi heyətinə

Hörmətli Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin əməkdaşları və veteranları!

Sizi Azərbaycanda təhlükəsizlik və kəşfiyyat orqanlarının yaradılmasının 100 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

1919-cu il martın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin kəşfiyyat və əks-kəşfiyyat qurumu kimi fəaliyyətə başlamış xüsusi xidmət orqanlarımız mürəkkəb inkişaf yolu keçmişlər.

Sovet İttifaqı dövründə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin təhlükəsizlik orqanlarının xalqımızın maraqlarına xidmət göstərməsini təmin etmiş və peşəkar milli kadrların yetişməsinə əvəzsiz töhfə vermişdir.

1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan çox ciddi təhlükələrlə - ilk növbədə Ermənistanın təcavüzü ilə, habelə terrorçuluq, separatçılıq, dərin siyasi və sosial-iqtisadi böhranla üzləşmişdir. Dövlətçiliyimizin təhlükə altında olduğu belə bir vəziyyətdə Azərbaycan xalqı müdrik qərar qəbul edərək ölkəyə rəhbərliyi ümummilli lider Heydər Əliyevə etibar etdi.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev ölkəmizi parçalanmaq və müstəqilliyini yenidən itirmək təhlükəsindən qurtardı, ictimai-siyasi sabitliyi təmin etdi. Məhz ümummilli liderin səyləri nəticəsində zəngin dövlətçilik ənənələrimiz bərpa olundu, dünyəvi, demokratik və hüquqi dövlətin təməli qoyuldu, ölkəmiz dünya arenasında bərabərhüquqlu etibarlı tərəfdaş kimi tanındı.

Bu dövrdə ulu öndər Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsinin başlıca istiqamətlərini müəyyən etdi, dövləti xarici və daxili təhdidlərdən qorumağa qadir olan xüsusi xidmət orqanları sistemini formalaşdırdı.

Xüsusi xidmət orqanlarının müasir dövrün çağırışlarına uyğun inkişafını təmin etmək və fəaliyyətinin səmərəliliyini artırmaq məqsədi ilə 2015-ci ildə mühüm islahatlar aparılmış, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətləri yaradılmışdır. Xidmətlər yüksək peşəkarlığı ilə seçilən kadrlarla komplektləşdirilmiş, müasir informasiya texnologiyaları ilə təchiz edilmiş, onların maddi-texniki bazası və əməkdaşlarının sosial müdafiəsi gücləndirilmişdir.

Bu gün xüsusi xidmət orqanları Azərbaycanın milli maraqlarının təmin olunması, konstitusiya quruluşunun qorunması, dövlət qərarlarının informasiya təminatının həyata keçirilməsi, habelə terrorçuluğa, separatçılığa, dini ekstremizmə, transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə və digər sahələrdə uğurla fəaliyyət göstərirlər.

Dünyada və regionda gedən proseslərin sülh və təhlükəsizlik üçün yaratdığı təhdidlər beynəlxalq əməkdaşlığın əhəmiyyətini daha da artırır. Xüsusi xidmət orqanlarımız bir çox xarici dövlətlərin tərəfdaş qurumları ilə strateji xarakter daşıyan əlaqələr qurmuşdur və bu səmərəli əməkdaşlıq nəticəsində regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsinə dəyərli töhfə verirlər. Biz bu tərəfdaşlığı yüksək qiymətləndiririk və onun daha da dərinləşməsində maraqlıyıq.

Əminəm ki, xüsusi xidmət orqanlarımız qarşıya qoyulmuş vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcək, bu orqanların hər bir əməkdaşı ölkəmizin milli təhlükəsizliyinin təmin edilməsi yolunda qətiyyət və əzm nümayiş etdirəcəkdir.

100 illik yubileyiniz münasibətilə sizi bir daha ürəkdən təbrik edir, Azərbaycanın təhlükəsizliyinin etibarlı təmin olunması naminə şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 mart 2019-cu il*

# Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,3 milyon (altı milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 mart 2019-cu il*

# Ş.H.Xanbabayevin 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Şəmsəddin Hüseynqulu oğlu Xanbabayev 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 mart 2019-cu il*

# Azərbaycan Prezidenti İlham Əliyev Avstriyaya işgüzar səfərə gəlib



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Avstriya Respublikasına işgüzar səfərə gəlib.

# Prezident İlham Əliyev Avstriyanın vitse-kansleri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Vyanada Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxe ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Avstriyanın vitse-kansleri ilə Bakıda keçirdiyi görüşü məmnuniyyətlə xatırladan dövlətimizin başçısı həmin görüşdə ikitərəfli əməkdaşlığa dair geniş fikir mübadiləsi aparıldığını dedi. Azərbaycan-Avstriya münasibətlərinin, o cümlədən siyasi və iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev bu ölkəyə səfərinin, həmçinin vitse-kanslerlə görüşünün əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını vurğuladı.



Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxe ölkəmizə səfəri çərçivəsində Prezident İlham Əliyev ilə görüşünün və apardığı səmərəli müzakirələrin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verdiyini ifadə etdi.

Söhbət zamanı Azərbaycan ilə Avstriya arasında iqtisadi-ticarət münasibətlərinin genişləndirilməsi məqsədilə əməkdaşlıq formatlarının yaradılması təşəbbüslərinə toxunuldu, bu çərçivədə iki ölkənin dövlət qurumları və işgüzar dairələri arasında əlaqələrin genişləndirilməsinin önəmi vurğulandı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Güclü iqtisadi potensial, keyfiyyətli inkişaf uğurlu sosial siyasətin əsasıdır

Son illərdə həyata keçirilən, konkret hədəflərə yönəlmiş məqsədyönlü islahatlar ölkənin iqtisadi potensialının daha da möhkəmləndirilməsinə, vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun və gəlirlərinin artırılmasına, yoxsulluq səviyyəsinin daha da azaldılmasına əhəmiyyətli dərəcədə öz müsbət təsirini göstərmişdir. Məhz bu islahatların nəticəsidir ki, Heritage Foundation tərəfindən hazırlanan hesabatda son on il ərzində həyata keçirilən davamlı iqtisadi islahatlar nəticəsində Azərbaycanın ümumi orta hesab üzrə regional və dünya göstəricilərindən üstün olaraq Asiya-Sakit Okean regionunda 43 ölkə arasında 14-cü yerdə qərarlaşdığı bildirilir.



Bundan əlavə, sözügedən indeks üzrə Azərbaycan Fransa, İtaliya və Yunanıstan kimi inkişaf etmiş ölkələr ilə müqayisədə ön sıralarda yer tutub. Həmçinin Rusiya da daxil olmaqla bir sıra MDB ölkələrini qabaqlayıb.

Heç şübhəsiz ki, Azərbaycanın "2018 Doing Business", "İnklüziv İnkişaf indeksi 2018" və "Qlobal Rəqabətlilik İndeksi"ndə mövqeyinin gücləndirilməsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin başçılığı ilə həyata keçirilən məqsədyönlü, dərin və köklü iqtisadi islahatlara verilən beynəlxalq qiymətdir.

Rəqəmlərə, statistikaya müraciət etsək, görərik ki, regionlarla bağlı dövlət proqramlarının icrasına start verildikdən sonra, yəni, ötən 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,3 dəfə artmışdır. 15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulmuş və bu sərmayənin yarısı xarici investisiyalardır.

Bu gün xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Əgər ilk dəfə, 2006-cı ildə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında 98-ci yerdə qərarlaşmışdısa, ölkə Prezidentinin də vurğuladığı kimi, aparılan köklü islahatlar, investisiya mühitinin yaxşılaşdırılması nəticəsində son hesabatda artıq ölkəmiz 25-ci yerdədir. Yəni bu, bir daha onu deməyə əsas verir ki, bundan sonra da həm daxili, həm xarici investorlar Azərbaycana böyük həcmdə sərmayə qoyacaqlar. Həmçinin bu sərmayə imkan verəcək ki, bundan sonra da iş yerləri, yeni müəssisələr yaradılsın və ölkəmiz inamla inkişaf etsin.

Bütün bu nailiyyətlər bir daha sübut edir ki, ölkə əhalisinin layiqli həyat səviyyəsini təmin etmək və sosial rifahını yüksəltmək, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafına nail olmaq dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir. Bu yaxınlarda Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilən iqtisadi və sosial məsələlərə həsr olunmuş müşavirə Azərbaycan cəmiyyətinə bir daha nümayiş etdirdi ki, ölkənin iqtisadi inkişaf strategiyasının ana xəttini məhz əhalinin rifah halının yaxşılaşdırılması təşkil edir, Prezident həmişə olduğu kimi öz vətəndaşının yanındadır.

Ölkəmizdə işçilərin maddi-sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyələrinin təmin edilməsi aparılan sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən biri hesab edilir. Belə bir iqtisadi inkişaf sosial siyasətin uğurla reallaşması üçün güclü baza yaradır. Bütün bunların arxasında dinamik artan, davamlı sosial inkişaf dayanır. Son dövrlərdə əhalinin gəlirlərinin artırılması meyilləri güclənir. Ölkəmizdə ən vacib məsələlərdən biri minimum aylıq əməkhaqqının məbləğinin davamlı artırılmasıdır.

Minimum əməkhaqqının məbləği 2019-cu il martın 1-dən 50 manat artırılaraq 130 manatdan 180 manata çatdırılıb və ya 38,4 faiz artırılıb. Azərbaycanda bundan əvvəl 400 min şəxs 180 manatdan az əməkhaqqı alırdı ki, onların da 67 faizi, yəni 270 mini dövlət sektorunda çalışırdı. Bu sərəncamdan sonra isə minimum aylıq əməkhaqqı yaşayış minimumuna bərabərləşdirildi. Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu ilin 10 ay ərzində isə 335 milyon manata qədər əlavə vəsait yönəldiləcək. Eyni zamanda ölkə iqtisadiyyatının güclənməsi ilə qarşıdakı illərdə minimum aylıq əməkhaqqının daha da artırılacağı gözlənilir.

Minimum əməkhaqqının hazırkı artımı birbaşa olaraq 600 minədək insanı əhatə edəcək. Belə ki, dövlət sektorunda işləyən 450 min nəfər və özəl sektorda işləyən 150 min nəfər bu sərəncamdan faydalanacaq. Yəni dövlət sektoru üzrə 450 min işçinin əməkhaqları 30 faiz, özəl sektor üzrə 150 min işçinin əməkhaqları 15-20 faiz artacaq. Bununla yanaşı, vergi və sığorta yığımları 150-200 milyon manat artacaq. Xüsusən də bu artım nəticəsində qadınların orta aylıq əməkhaqqı kişilərin orta aylıq əməkhaqqına yaxınlaşacaq.

Heç şübhəsiz ki, minimum əməkhaqqının artımı əmək münasibətlərinin leqallaşdırılmasına ciddi sağlamlaşdırıcı təsir göstərəcək. Hesab edirik ki, minimum əməkhaqqının artımı ölkədə orta əməkhaqqının 10 faizədək artırılmasına səbəb olacaq ki, bu da məcmu tələbin gücləndirilməsinə xidmət edir. Əgər nəzərə alsaq ki, bu il Azərbaycanda 3,6 faiz ÜDM artımı olacaq, onda məcmu tələbin artması iqtisadi artıma da stimullaşdırıcı təsir göstərəcək. Həm məcmu təklifin, həm də məcmu tələbin artması inflyasiya təzyiqi ehtimalını heçə endirir.

Beləliklə, cənab Prezident Azərbaycan iqtisadiyyatının davamlı artan imkanlarını əhalinin sosial rifahına və layiqli həyat səviyyəsinin yaxşılaşdırılmasına istiqamətləndirir. Bu Azərbaycanın ana qanunu olan Konstitusiyasında qeyd edilən sosialyönümlü bazar iqtisadiyyatının qurulması istiqamətində atılan vacib addım kimi qiymətləndirilməlidir. 2019-cu ilin əvvəlindən cənab Prezident tərəfindən əməkhaqqı, pensiya və müavinətlərin artırılması, şəhid ailələrinə kompensasiyaların verilməsi, əmanətlərin tam sığortalanması, özünüməşğulluq proqramının genişləndirilməsi, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və təbii fəlakətin nəticələrinin aradan qaldırılması sahəsində mühüm addımlar atılmışdır.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında", eləcə də "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" sərəncam və fərmanları nəticəsində bir sıra istiqamətlər üzrə mövcud vəziyyətin yaxşılaşdırılması, maliyyə sabitliyi və davamlı iqtisadi inkişafın təmin olunması, Azərbaycanın iqtisadi mövqeyinin gücləndirilməsi ilə bağlı mühüm nailiyyətlər əldə olunub.

Erməni işğalçıları tərəfindən torpaqlarımızın 20 faizindən çoxunun işğalı nəticəsində öz evlərindən, yurd yerlərindən didərgin salınmış məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olmuşdur və bu gün də belədir. Heç təsadüfi deyil ki, məhz bu diqqət nəticəsində son illər ərzində yüzdən çox şəhərcik tikilib, köçkünlərə təqdim edilmiş, şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil təqdim edilmişdir və bu proses davam etdirilir. Ölkə Prezidentinin yanvarın 28-də şəhid ailələri ilə görüşündə səsləndirdiyi kimi, bu kateqoriyadan olan bütün vətəndaşlar evlərlə təmin olunacaqlar, mənzilsiz qalan şəhid ailəsi və müharibə əlili olmayacaq. Şəhid ailələrinə ödənilən birdəfəlik müavinətlərin maliyyə tutumu 135 milyon manatdır.

Fərman və sərəncamların icrası nəticəsində yüz minlərlə imkansız adamın maddi vəziyyəti yaxşılaşacaq. Tam mübaliğəsiz demək olar ki, miqyasına görə dünyanın heç bir ölkəsində belə tədbirlər həyata keçirilmir. İlham Əliyev deyib, bir neçə aydır ki, ciddi sosial paket üzərində iş aparılır. Ölkədə minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, digər ödənişlərin verilməsi bu "böyük sosial paketin" tərkib hissəsidir. Bu proqram 500 mindən çox adamı əhatə edəcək.

Həyat səviyyəsinin mühüm göstəricilərindən biri əhalinin pul gəlirlərinin artmasıdır. 2018-ci ildə əhalinin pul gəlirləri 53 mlrd. 688,6 mln. manat olmuşdur ki, bu 2010-cu ilə nisbətən 2 dəfədən də çoxdur. I və II devalvasiyadan sonra banklarda olan əmanətlərinin həcmi 21,4 faiz azalmışdı. Lakin son vaxtlar iqtisadi, sosial inkişafda əldə edilən nailiyyətlər əhalinin banklarda olan əmanətlərinin dinamikasındakı müsbət meyilləri gücləndirmişdir. Bu çox vacib meylin davamlı olması üçün əmanətlərin sığortalanması xüsusi əhəmiyyət kəsb edir.

2016-cı ildə cənab Prezident tərəfindən 3 il müddətinə "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdi. Bu il qərarın qüvvədə olma müddəti bitdiyi üçün Prezident İlham Əliyev tərəfindən əmanətlərin tam sığortalanması 2020-ci il mart ayının 4-nə qədər uzadılır.

Dövlət başçısının bilavasitə rəhbərliyi ilə aparılan uğurlu iqtisadi islahatların nəticəsində əhalinin banklardakı depozitləri 2018-ci il ərzində 9,6 faizdən çox artaraq 7 milyard 542,5 milyon manatdan 8 milyard 269,7 milyon manata yüksəlmişdir. Əmanətlərdə artım həm tələbli, həm də müddətli depozitlər üzrədir. Təsadüfi deyil ki, müddətli depozitlər üzrə 5,6 faizi (291 mln. AZN), tələbli depozitlər üzrə isə 18,5 faizi (436 mln. AZN) artım müşahidə edilib. Milli valyutada olan əmanətlər 2015-ci ilin sonu ilə müqayisədə 2,1 dəfə artmış və ölkə iqtisadiyyatının dollarlaşması prosesi zəifləmişdir.

Bütövlükdə, əmanətlərin tam sığortalanması mexanizmi 8 minə yaxın insanı əhatə edir. Hazırda dövlətin sığortaladığı əmanət həcmi 3 dəfəyədək artaraq əmanət portfelinin 77 faizini (6.4 mlrd. manat) təşkil etmişdir. Bu isə əmanətlərin tam sığortalanması mexanizminin nə qədər effektiv olduğunu bir daha sübut edir.

Azərbaycanda əmanətlərin tam sığortalanması dünyada rast gəlinən nadir hallardandır. Məsələn, dünyanın bir çox ölkələrində (o cümlədən qonşu ölkələrdə) əmanətlər müəyyən limit həddində sığortalanır. Müqayisə göstərir ki, Azərbaycan dövləti əmanətlərin tam sığortalanmasını həyata keçirməklə bu sahədə əhalinin maraqlarını ən yüksək səviyyədə qorumuş olur.

Problemli kreditlər məsələsi son dörd il ən çox müzakirə edilən, gündəmin ən vacib məsələlərindən biri idi. Hər kəs bununla bağlı öz narahatlığını bildirir, problemin həll olunacağı günü gözləyirdi. Çünki 2015-ci ildə ölkənin bank-maliyyə sektorunda yaşananlar, "Beynəlxaq Bank" ətrafında baş verənlər, 21 fevral və 21 dekabr devalvasiyaları əhalinin banklara olan kredit borclarının ödənilməsində çox ciddi problemlər və sıxıntılar yaratdı.

Xüsusilə dollarla götürülən kreditlərin ödənilməsində banklarla müştərilər arasında ciddi narazılıqlar özünü büruzə verməyə başladı. Təəssüf ki, bu illər ərzində problemin qarşılıqlı anlaşma şəraitində həlli istiqamətində də banklarla əhali arasında dil tapmaq mümkün olmadı. Banklar özləri də bu yöndə hansısa addım atmadı və beləliklə, problem şişə-şişə bugünkü duruma gəlib çıxdı. Bu məsələ parlamentdə də, bizim komitədə də dəfələrlə müzakirə mövzusu oldu, problemin həlli istiqamətində deputatlar, komitə üzvləri tərəfindən ən müxtəlif təkliflər səsləndirildi, hətta bu yöndə ayrıca qanun layihəsinin hazırlanıb müzakirələrə çıxarılması və qəbul olunması təklifləri irəli sürüldü.

Banklar real iqtisadiyyata vəsait qoymaqla, kredit ayırmaqla həm özlərinə, həm də ümumilikdə iqtisadiyyatımızın inkişafına, insanlarımızın rifah halının yaxşılaşdırılmasına daha çox töhfə verə bilərlər. Ancaq çox təəssüf ki, ötən müddət ərzində təkliflər təklif olaraq qaldı, onların gerçəkləşdirilməsi istiqamətində addımlar atılmadı. Hətta bankların sağlamlaşdırılması üçün dövlət tərəfindən addımlar atılsa da, banklar tərəfindən bu istiqamətdə heç bir hərəkətlilik yox idi. Ancaq çox sevindirici və təqdirəlayiq haldır ki, artıq bir çox məsələlər kimi, bu məsələdə də dövlət başçısı İlham Əliyev öz mövqeyini açıq şəkildə ifadə etdi, problemin həllinə əl qoydu.

Fevralın 25-də ölkə Prezidentinin yanında keçirilən müşavirədə bir çox məsələlərin yaxın gələcəkdə həllinin anonsu verildi, o cümlədən, əhalini, dövlətin özünü narahat edən problemli kreditlər məsələsinin həlli yönündə addımların atılmasının nəzərdə tutulduğu bildirildi. Dövlət başçısı bu məsələnin ciddi bir probleme çevrildiyini bildirərək, onun həlli ilə bağlı tapşırıqlar verildiyini, aidiyyəti qurumların son iki ay ərzində bununla ciddi məşğul olduğunu söylədi və əlavə etdi ki, məsələnin həllinə çox vaxt qalmayıb. Elə bu yerdə qeyd edim ki, problemli kreditlər məsələsi Birinci vitse-prezident Mehriban Əliyevanın da daim diqqətdə saxladığı məsələlərdən biri olub. Hətta, problemli kreditlərin həlli ilə bağlı müvafiq İşçi Qrupunun iclaslarında da iştirak edərək öz məsləhət və tövsiyələrini vermişdi. Və bütün bunların nəticəsi olaraq (eləcə də, dövlət başçısının yanında keçirilən müşavirədən üç gün sonra) fevralın 28-də problemli kreditlərin həlli ilə bağlı tarixi fərman imzalandı. "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman uzun müddət müzakirə olunan və əhalini daha çox narahat edən sosial məsələlərin həlli deməkdir. Ölkə prezidentinin yaradıcı insanlarla, mədəniyyət və incəsənət xadimləri ilə görüşündə də qeyd etdiyi kimi, bu fərmanın dünyada analoqu yoxdur.

Bütövlükdə götürdükdə bu fərmanla 2015-ci il devalvasiyalarından yaranan xarici valyutada olan kreditlərin dəyər artımına görə veriləcək kompensasiya vətəndaşların bu gün mövcud olan kreditlərinin əsas məbləğinin ödənilməsinə yönəldiləcək. Burada ən vacib məqamlardan biri də odur ki, problemli kreditlərlə bağlı məhkəmə işləri dayandırılacaq, məhkəmələrin qərar və qətnamələri qüvvədən düşəcək. Bu da haradasa 311 mindən artıq məhkəmə işini əhatə edir.

Banklarla vətəndaşlar arasında gedən məhkəmə işləri həddindən artıq çox idi. İnsanlar neçə illərdir məhkəmə çəkişmələrindən əziyyət çəkirdilər, burada böyük haqsızlıqlar da vardı. Sirr deyil ki, bəzi banklar lazım olmayan hərəkət edirlər, insanları məhkəmə yolu ilə çıxılmaz vəziyyətə salırdılar, yəni bu illər ərzində evlərini, mülklərini, maşınlarını itirənlər də az deyildi. Bununla bağlı böyük narazılıqlar yaranırdı, insanlar bu haqsızlıqlarla əlaqədar bizə də müraciət edirdi.

Təsəvvür edin, milyona yaxın insanı, yüz minlərlə ailəni əhatə edən 311 mindən artıq məhkəmə işi indi geri çəkiləcək. Bununla yanaşı, kim ki ötən müddətdə banklara artıq pul ödəyib, dəymiş zərər ona qaytarılacaq. Eyni zamanda, bütün bu məsələlərin həlli nəticəsində insanların inkişaf göstəriciləri yaxşılaşacaq. İnsanlara dəymiş ziyanın ödənilməsi, 311 min məhkəmə işinin geri çəkilməsi həm də böyük addımdır, humanizm nümunəsidir.

Dünyanın heç bir ölkəsi belə bir addım atmayıb. Azərbaycan dövləti isə bunu etməyi bacardı. Problemli kreditlər təxminən 1,6 milyard manatdır, son bir ayda pensiyalarla, müavinətlərlə, əməkhaqqı artımları ilə bir yerdə bu, 2,2 milyard manat vəsait deməkdir. Deməli, Azərbaycan dövlətinin siyasətinin ana xətti əhalidir, insanlardır, onların rahatlığının təmin edilməsidir.

Bu, həm də onu göstərir ki, iqtisadiyyatımız güclü, dinamik inkişaf edir və yaranan sabitlik, artan gəlirlər problemli kreditlərin həll olunmasının da maddi əsaslarını əhəmiyyətli dərəcədə möhkəmləndirir.

Bütün bu irimiqyaslı sosial layihələrin həyata keçirilməsi ilk növbədə Azərbaycanda aparılan iqtisadi siyasətlə sıx bağlıdır. Ölkənin artan iqtisadi qüdrəti, yaradılan potensial sosialyönümlü bazar iqtisadiyyatının qurulması istiqamətində möhkəm özül formalaşdırır. Ölkə iqtisadiyyatının davamlı inkişafını şərtləndirən sahələrdən biri də inşaat kompleksidir. Zəngin maddi-texniki bazaya malik tikinti kompleksində əsasən yerli mütəxəssislər çalışırlar.

Nəticədə ölkəmizdə müasir emal müəssisələri tikilib, yollar çəkilib, körpülər salınıb. Bir sözlə, infrastruktur yenidən qurulub. İnşaat kompleksində mühüm yerlərdən birini də mənzil tikintisi tutur. Həyat səviyyəsinin yüksəldilməsi göstəricilərindən biri də əhalinin mənzillərlə təmin edilməsidir. Bu sahədə işlərin sürətləndirilməsi məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyi yaradılmışdır. Lakin uzun illərdir əhalini narahat edən məsələlərdən biri də yeni mənzillərin sənədləşdirilməsi problemi idi.

Cənab İlham Əliyev indiyə kimi tikilmiş, amma dövlət sənədi verilməmiş çoxmərtəbəli binalarda bu problemi də həll edib. Yaxın gələcəkdə müvafiq dövlət orqanları bütün sənədləşmə işlərini apararaq məsələnin həllini təmin edəcəklər. Dörd yüz çoxmənzilli binada təxminən 60 minə yaxın əhali yaşayır. O vətəndaşların ailə tərkibləri təqribən 300-400 min arasıdır. Görün ölkə rəhbərinin bu qərarı neçə Azərbaycan vətəndaşının sevincinə səbəb olacaqdır.

Regionlarda, rayonlarda keçirdiyim görüşlər zamanı insanlar görülən tədbirlərdən çox razılıq edirlər. Onlar dövlətin həmişə öz vətəndaşının yanında olduğunu vurğulayırlar. Bütün bunlar eyni zamanda iqtisadi fəallığın artacağını da deməyə əsas verir. Düşünürəm ki, imzalanmış fərman və sərəncamlar vətəndaşlarla yanaşı, banklara da müsbət təsir göstərərək, onların da fəaliyyətini aktivləşdirəcəkdir. Davam edən islahatlar 2019-cu ilin bütövlükdə Azərbaycan üçün uğurlu il olacağını deməyə möhkəm əminlik yaradır.

Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşdırılmasına xidmət edir. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, müstəqil siyasətini aparır, maraqlarını tam şəkildə qoruyur.

Heç kim kənar, zərərli təsirlərə məruz qalmamalıdır, əksinə, bu təsirlərə qarşı daha da səfərbər olmalıdır. Bu gün ölkəmizin müstəqilliyini, inkişafını, sabitliyini gözügötürməyən qüvvələr hələ də mövcuddur. Onlar hər an fürsət gözləyirlər. Ona görə də həmin qüvvələrə heç zaman fürsət verilməməlidir. Bu dövlət hamımızındır, onun üçün hər birimiz məsuliyyət daşıyırıq, daşımalıyıq, bir sözlə, burada ikinci bir mövqe ola bilməz.

Azərbaycan dövlətinin siyasətinin ana xəttini xalqın layiqli həyat səviyyəsi ilə yüksək təminatı təşkil edir. Dövlət başçısının mövqeyi ondan ibarətdir ki, əhalinin həyat səviyyəsini xarakterizə edən bütün göstəricilərin bundan sonra da yaxşılaşdırılması davam etdiriləcəkdir. İmzalanmış son fərman və sərəncamlar da məhz bu qəbildən olan tədbirlərdəndir.

***Ağalar VƏLİYEV,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini***

# "İslam ölkələri işğalçı Ermənistanla ikitərəfli münasibətləri məhdudlaşdırsın"

## İƏT Parlament İttifaqı XIV sessiyasında Azərbaycanın mənafeyini əks etdirən iki qətnamə qəbul olunub

İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının (İƏT Pİ) Mərakeş Krallığının paytaxtı Rabat şəhərində keçirilən XIV sessiyasında və digər illik tədbirlərində Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı, Xocalı soyqırımının tanınması, islamofobiya, ksenofobiya, qeyri-tolerantlığa qarşı mübarizə, müsəlman ölkələri arasında viza prosesinin sadələşdirilməsi və digər məsələlərlə bağlı müzakirələr aparılıb.



### Yekun kommunikeyə iki bənd salınıb

Milli Məclisin deputatı, İƏT Pİ-də Azərbaycan parlamentinin nümayəndə heyətinin rəhbəri, akademik Gövhər Baxşəliyeva qəzetimizə açıqlamasında bildirib ki, nümayəndə heyəti öncə qurumun İcraiyyə Komitəsinin 41-ci iclasında iştirak edib. Təşkilatın Siyasi məsələlər və xarici əlaqələr daimi komitəsinin iclasında Milli Məclisin nümayəndə heyətinin təşəbbüsü ilə təklif edilmiş iki qətnamə layihəsi - "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair" və "1992-ci il Xocalı soyqırımı qurbanlarının xatirəsinin anılması" barədə qətnamə layihələri müzakirə edilib. Hər iki qətnamə layihəsi üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənib, komitə iclasında qəbul olunub və İƏT Pİ Konfransının 12-ci sessiyasına təqdim edilib.

Yekun kommunikenin hazırlanması üçün keçirilən açıq iclasda isə sənədin mətni müzakirələrdən sonra qəbul olunub. Yekun kommunikeyə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən iki bənd salınıb.

Gövhər Baxşəliyevanın sözlərinə görə, təşkilatın İnsan hüquqları, qadın və ailə məsələləri üzrə komitəsinin iclasında Myanmada Rohinca müsəlmanlarına qarşı davam edən insan haqları pozuntuları, Cammu və Kəşmirdə davam edən insan hüquqları pozuntuları, İƏT Pİ-na üzv dövlətlərdəki bütün inkişaf istiqamətlərində qadınların rolunun artırılması, İƏT Pİ konfranslarında nümayəndə heyətlərinin tərkibində qadınların iştirakı, İslam aləmində gənclərin statusunun artırılması, Avropada müsəlman miqrant ailələrinin vəziyyəti və s. məsələlərə baxılıb.



Azərbaycan nümayəndə heyətinin rəhbərinin də qatıldığı müsəlman qadın parlamentarilərin 8-ci konfransında müsəlman qadınlarının hüquq və vəzifələrinə dair bır sıra çıxışlar olub. Yerli və regional problemlərin və münaqişələrin həllində qadınların rolu, müsəlman qadın və uşaqların işğal altında olan ərazilərdə qarşıdurmalardan qorunması kimi mövzularda müzakirələr aparılıb və müsəlman qadın parlament üzvlərinin növbəti konfransının tarixi və yeri müəyyənləşdirilib.

### Bütün müsəlman aləminə qarşı böyük cinayət

İƏT Pİ-nin XIV sessiyasında isə təşkilata üzv dövlətlərin (BƏƏ, Uqanda, Küveyt, Burkina-Faso, Liviya, Qatar, Mavritaniya, Oman, Səudiyyə Ərəbistanı, Seneqal və s.) spikerləri, o cümlədən Türkiyənin Böyük Millət Məclisinin yeni seçilmiş sədri Mustafa Şentop geniş nitq söyləyib.

Sessiyada iştirak edən üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərlərinin də çıxışı olub. Azərbaycan nümayəndə heyətinin rəhbəri Gövhər Baxşəliyeva çıxış edərək öncə Prezident İlham Əliyevin salamlarını tədbir iştirakçılarına çatdıraraq müzakirə edilən məsələlərə münasibətini bildirib. Fələstin və müqəddəs Qüds əl-Şərif, Suriya, Somali, Əfqanıstan, Mali, Kıprıs, Camu və Kəşmir, Qərbi Trakiya və Dodekanesdə müsəlman azlıqlarının problemlərinə toxunub, Myanmada Rohinca müsəlmanlarının vəziyyətinə dair Azərbaycanın mövqeyini açıqlayıb. Gövhər Baxşəliyeva bizimlə söhbətində dedi: "Həmçinin Xocalı faciəsi haqqında məlumat verərək, insanlığa qarşı yönəlmiş bu cinayətin səbəblərindən və ağır nəticələrindən danışdım. Bildirdim ki, 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Azərbaycanın Xocalı şəhərində kütləvi qırğın törədilib, 613 dinc sakin qətlə yetirilib, 1275 nəfər girov götürülüb, 150 nəfər itkin düşüb, mindən çox insan əlil olub".

Öyrəndik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə tədbir iştirakçılarını məlumatlandıran nümayəndə heyətinin rəhbəri Ermənistanın ölkəmizə hərbi təcavüz etdiyini, ərazimizin 20 faizindən artıq hissəsinin işğal olunduğunu və bu təcavüz nəticəsində bir milyondan çox insanın ev-eşiyindən didərgin düşdüyünü söyləyib. Bütün parlamentarilərin diqqətinə çatdırılıb ki, bu təcavüz nəticəsində 20 min azərbaycanlı həlak olub, 150 min nəfər yaralanıb və ya müxtəlif dərəcəli xəsarət alıb, 4 mindən çox insan itkin düşüb. Ermənistan tərəfindən Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon işğal olunub, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, həmçinin islam abidələri, müqəddəs yerlər və məscidlər, mədəni irs nümunələri yerlə-yeksan edilib. Bu isə təkcə Azərbaycana qarşı yox, həm də bütün müsəlman aləminə qarşı böyük cinayətdir.

"Sonda bütün müsəlmanları bu cinayətlərə biganə qalmamağa çağırdım. BMT və digər beynəlxalq təşkilatların, o cümlədən İslam Əməkdaşlıq Təşkilatının və onun Parlament İttifaqının qəbul etdiyi çoxsaylı qətnamələri xatırladaraq, Ermənistan Respublikasının hələ də onlara əməl etmədiyini bildirdim", deyən Gövhər Baxşəliyeva üzv dövlətlərin təmsilçilərini Azərbaycan nümayəndə heyətinin, təşkilatın Rabat sessiyasına təqdim etdiyi haqq işini dəstəkləyən iki qətnamə layihəsinə səs verməyə çağırıb və qətnamələr yekdilliklə qəbul edilib.

### Ermənistan iqtisadiyyatına sərmayə qoyuluşundan imtina edilməlidir

Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair qəbul edilən qətnamədə göstərilir ki, İƏT Pİ bu təcavüzü qəti şəkildə pisləyir və erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Həmçinin işğal olunmuş Azərbaycan ərazilərində mülki əhaliyə qarşı törədilmiş əməlləri insanlıq əleyhinə cinayət kimi qiymətləndirir və bu cinayəti törədənlərin məsuliyyətə cəlb edilməsini qeyd edir. Eyni zamanda təcavüzkarı münaqişənin gələcək eskalasiyası imkanından və Azərbaycan ərazilərini işğal altında saxlamağa davam etməkdən məhrum etmək üçün bütün dövlətləri Ermənistanı hər hansı silah və hərbi sursatla təmin etməkdən çəkinməyə çağırır.

Qeyd edilir ki, Dağlıq Qarabağ və digər işğal olunmuş Azərbaycan ərazilərinə İƏT üzv dövlətlərinin fiziki və hüquqi şəxslərinin hər hansı səfərləri və orada fəaliyyəti qadağan olunmalıdır.

Qətnamədə üzv dövlətlərə Ermənistanla ikitərəfli münasibətlərin, eləcə də diplomatik nümayəndəliyin səviyyəsinin endirilməsi yolu ilə məhdudlaşdırılması, işğalçı ölkə ilə iqtisadi əməkdaşlıqdan, onun iqtisadiyyatına sərmayə qoyuluşundan imtina etmək çağırışı edilir.

İƏT Pİ üzv dövlətləri bu istiqamətdə göstərilən səylərin gücləndirilməsi və yuxarıda qeyd edilən məsələlərin daha effektiv həlli üçün zəruri qanunvericilik aktlarını və onların tətbiqi mexanizmlərini qəbul etməyə çağırır.

### İƏT üzvləri "Xocalıya ədalət!" kampaniyasına dəstək verməlidir

Xocalı soyqırımının qurbanlarının xatirəsinin anılmasına dair qətnamədə isə Parlament İttifaqının Nizamnaməsindən və İslam Əməkdaşlıq Təşkilatının Xartiyasından irəli gələn prinsip və məqsədlərindən çıxış edərək, İslam Sammiti Xocalıda mülki vətəndaşlara qarşı törədilmiş kütləvi qətliamı insanlığa qarşı cinayət və soyqırımı kimi şiddətlə qınayaraq İƏT üzv parlamentləri törədilmiş cinayətin müharibə cinayəti, insanlığa qarşı cinayət və soyqırımı kimi tanınması üçün bütün səylərini əsirgəməməyə çağırılır. Həmçinin qeyd edilir ki, İƏT Pİ üzv parlamentləri Xocalı şəhərində və münaqişə zamanı Azərbaycanın işğal edilmiş digər ərazilərində baş vermiş qətliamı insanlığa və bəşəriyyətə qarşı cinayət kimi milli və beynəlxalq müstəviyə qaldırmaq üçün səy göstərməlidirlər.

Təşkilat "İƏT Anım günü proqramı" çərçivəsində təşviq edilən və Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıda törədilmiş soyqırımı tarixi həqiqətlərinin üzə çıxarılması məqsədi daşıyan "Xocalıya ədalət!" beynəlxalq vətəndaş maarifləndirilməsi kampaniyasını alqışlayır və bütün İƏT üzv parlamentləri bu kampaniyanı dəstəkləməyə və onun fəaliyyətində iştirak etməyə çağırır.

Gövhər Baxşəliyevanın sözlərinə görə, sessiya Rabat deklorasiyasını qəbul etməklə işini tamamlayıb. Azərbaycan nümayəndə heyətinin Mərakeşə apardığı əyani vəsaitlər - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Xocalı qətliamı haqqında AMEA Şərqşünaslıq İnstitutunun ərəb dilində nəşr etdiyi broşür və bukletlər bütün iştirakçılara paylanıb və onlar tərəfindən böyük diqqətlə qarşılanıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Hər bir sahibkara dəymiş zərər dövlət tərəfindən ödəniləcək





Nizami rayonundakı "Diqlas" ticarət mərkəzində baş vermiş yanğından zərərçəkən sahibkarlarla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə martın 28-də görüş keçirilib. Bu barədə AZƏRTAC-a Nizami Rayon İcra Hakimiyyətindən məlumat verilib.

Rayon icra hakimiyyətində keçirilən görüşdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin müdir müavini Hüseyn Mövsümov, sektor müdiri Tağı Tağıyev, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov və digər rəsmi şəxslər iştirak ediblər.

Rayon icra hakimiyyətinin başçısı Arif Qasımov məlum hadisə ilə bağlı dövlət başçısı İlham Əliyevin aidiyyəti qurumlara tapşırıqlarını zərər çəkən sahibkarlara çatdırmaq üçün sözü Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdir müavini Hüseyn Mövsümova verib.

Hüseyn Mövsümov "Diqlas" ticarət mərkəzində yanğın başlanan andan hadisənin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ciddi nəzarəti altında olduğunu bildirib. Şöbə müdirinin müavini dövlət başçısının tapşırıqlarını diqqətə çatdıraraq qeyd edib ki, baş vermiş hadisə ilə bağlı aidiyyəti qurumların və zərər çəkən sahibkarların nümayəndələrindən ibarət komissiya təşkil ediləcək. Ədalətli araşdırma aparılaraq zərər çəkmiş hər bir sahibkara dövlət tərəfindən yardım göstəriləcək.

Görüşdə iştirak edən sahibkarlar Prezident İlham Əliyevi hər zaman dəstəklədiklərini və dövlət başçısının onlara göstərdiyi qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, zərərçəkən sahibkarlar martın 27-də də Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov tərəfindən qəbul edilib və onların fikirləri dinlənilib.

# FHN "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla bağlı rəsmi məlumat yayıb

Fövqəladə Hallar Nazirliyi (FHN) martın 26-da paytaxtın Nizami rayonu ərazisində "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla bağlı rəsmi məlumat yayıb.

FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, martın 26-da saat 08:13-də nazirliyin 112 - "qaynar telefon" xəttinə Bakının Nizami rayonu, Qara Qarayev prospekti - 81 ünvanında yerləşən "Diqlas" ticarət mərkəzinin yaxınlığında yerləşən iaşə obyektində (dönərxana) yanğının baş verməsi barədə məlumat daxil olub. Yanğının söndürülməsinə cəlb olunan nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin yanğınsöndürmə bölmələri saat 08:21-də çağırış ünvanına çatıb. Yanğının sürətlə yayılması, yanğın hidrantlarının və su hovuzlarının uzaq məsafədə olması, ərazidəki ticarət obyektlərinin sıx yerləşməsi və həmin obyektlərin yanğının sürətlə yayılmasına səbəb ola biləcək materiallarla üzlənməsi nəzərə alınaraq saat 08:28-də yanğının söndürülməsi üçün "3 saylı çağırış" elan edilib.

Yanğınsöndürmə işlərinin sürətləndirilməsi və digər təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi üçün yanğın yerinə nazirliyin Xüsusi Riskli Xilasetmə Xidməti və Mülki Müdafiə Qoşunlarının şəxsi heyəti, Aviasiya dəstəsinin 3 yanğınsöndürmə helikopteri cəlb olunub.

Yanğın nəticəsində dörd mərtəbədən və mansarddan, eləcə də üçmərtəbəli zirzəmidən ibarət ticarət mərkəzinin zirzəmisinin mənfi birinci mərtəbəsindən binanın mansardına kimi içərisində təsərrüfat, geyim və s. mallar olan müxtəlif növ mağazalar, habelə ticarət mərkəzinə bitişik köşklər 2600 kvadratmetr sahədə, ticarət mərkəzinin yaxınlığında yerləşən təsərrüfat malları bazarında müxtəlif növ ticarət obyektlərinin üzlük hissələri və qismən plastik pəncərə çərçivələri və dam örtükləri 200 kvadratmetr sahədə (ümumilikdə 16 min 500 kvadratmetr sahədə) yanıb.

Saat 12:30-da yanğının ətraf ərazilərə yayılmasının və açıq alovun qarşısı alınıb. Sonrakı mərhələdə kəşfiyyat, soyutma, ticarət mərkəzinin zirzəmisində gizli yanğın və tüstülənmə mənbələrinin aşkarlanması üçün söküntü və söndürmə işləri aparılıb. Yanğın saat 23:45-də tam söndürülüb.

"Diqlas" ticarət mərkəzinin zirzəmisinin mənfi 2-ci və 3-cü mərtəbələri (zirzəmi) içərisində olan mallarla birlikdə 5 min kvadratmetr sahədə, yaxınlıqda olan təsərrüfat malları bazarı 2, meyvə-tərəvəz bazarı 2,5 hektar ərazidə və üçmərtəbəli "Lotos" ticarət mərkəzi yanğından mühafizə olunub.

Hadisə ilə əlaqədar FHN-in Əməliyyat-istintaq idarəsində cinayət işinin başlanılması ilə bağlı qərar qəbul edilib və istintaq qrupu yaradılıb.

"Bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə guya yanğın tam söndürülmədən yanğınsöndürmə bölmələrinin ərazini tərk etməsi ilə bağlı həqiqətə uyğun olmayan məlumatlar yayılıb. Qəti şəkildə bəyan edirik ki, bu məlumatlar kökündən yanlış olmaqla reallığı əks etdirmir və görülən işlərin üzərinə kölgə salmaq məqsədilə qərəzli şəkildə yayılır.

Həmçinin Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində "Diqlas" ticarət mərkəzində yanğın təhlükəsizliyi qaydalarının pozulması və bu pozuntuların aradan qaldırılmasının zəruriliyi ilə bağlı ticarət mərkəzinin rəhbərliyini və digər aidiyyəti şəxsləri dəfələrlə rəsmi şəkildə xəbərdar edib.

Təəssüf hissi ilə bildiririk ki, əməliyyat barədə məlumatların nazirliyin rəsmi internet informasiya portalında mütəmadi yenilənməsinə baxmayaraq, bəzi xəbər saytları həqiqəti əks etdirməyən məlumatlar yayır. Kütləvi informasiya vasitələrinə, ictimaiyyət nümayəndələrinə, sosial şəbəkə istifadəçilərinə bir daha müraciət edərək nazirliyin fəaliyyəti, xüsusilə də baş verən hadisələrlə bağlı rəsmi olmayan, dəqiqləşdirilməmiş məlumatlardan istifadə etməməyə çağırır, hadisələrə həssaslıq və anlayışla yanaşmağı tövsiyə edirik.

Bir daha xatırladırıq ki, Fövqəladə Hallar Nazirliyinin fəaliyyəti barədə məlumatlar nazirliyin rəsmi internet informasiya portalında (www.fhn.gov.az) mütəmadi dərc olunur", - deyə FHN-in məlumatında qeyd olunub.

# "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın Azərbaycan Prezidenti tərəfindən xüsusi nəzarətə götürülüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən xüsusi nəzarətə götürülmüş paytaxtın Nizami rayonu ərazisində "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla bağlı başlanmış cinayət işi üzrə Baş Prokurorluğun, Fövqəladə Hallar, Daxili İşlər və Vergilər nazirliklərinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Cinayət işinin icraatı Azərbaycan Respublikası Baş prokurorunun qərarı ilə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə tapşırılıb.

Hazırda Cinayət Məcəlləsinin 225.2-ci (Yanğın təhlükəsizliyi qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) və 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə istintaqı aparılan cinayət işi üzrə hadisənin başvermə səbəblərinin, sahibkarlara dəymiş ziyanın, eləcə də cinayəti törətməkdə təqsirli şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Yanğın nəticəsində zərərçəkmiş vətəndaşlardan, eləcə də hadisə ilə bağlı məlumatlı şəxslərdən Nizami Rayon Prokurorluğunda yaradılmış qərargahın 421-10-02 və Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin 440-78-13 nömrəli telefonlarına zəng etmələri xahiş olunur.

# 4 amnistiya, 33 əfv

*Əvvəli 1-ci səh.*

İlham Əliyevin martın 16-da imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı 431 nəfər məhkuma şamil olundu. Onlardan 399-u cəzasının çəkilməmiş hissəsindən azad edildi, həmçinin ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş bir neçə nəfərin cəzası yüngülləşdirildi.

Vaxtilə cinayət törədərək azadlıqdan məhrum olunmuş həmin insanlar əziz bayramı öz ailə üzvləri, yaxınları ilə birlikdə keçirdilər. Eyni zamanda, bu addımın böyük tərbiyəvi əhəmiyyəti də var. Keçmiş məhkumlara öz həyatlarını yenidən qurmaq, cəmiyyətə qovuşmaq imkanı verildi. Cinayət yolu tutanlar, qanunları pozanlar baş verənlərdən ibrət dərsi götürür və görürlər ki, barmaqlıqlar arxasına düşmək təkcə onların deyil, həm də bütöv bir ailənin faciəsidir. Ona görə də deyə bilərik ki, bu sərəncam təkcə 431 nəfərə deyil, həmin şəxslərin hər birinin ailəsinə, övladlarına, valideynlərinə bəxş edilən sevinc payıdır.

İmzalanan əfv sərəncamları və qəbul olunan amnistiya aktları demokratiyanın inkişafına xidmət edən mühüm addım kimi şərh olunur. Ümumilikdə atılan hər bir addım insan amilinə verilən dəyərin aydın ifadəsidir.

Bu, cənab İlham Əliyevin ölkə vətəndaşlarına göstərdiyi yüksək diqqət və qayğısının bariz nümunəsidir. Dövlət başçısınn 16 illik prezidentliyi dövründə imzaladığı fərman və sərəncamlarda bu ali diqqətin və mərhəmətin şahidi olmuşuq.

Sonuncu, yəni 33-cü əfv sərəncamını da nəzərə alsaq, İlham Əliyev ötən 15 ildə 7961 nəfəri əfv edib. Bu dövrdə Azərbaycanda həm də 4 dəfə amnistiya elan edilib. Milli Məclis 2007-ci il mayın 8-də 9877 nəfər məhkuma şamil edilən "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında", 2009-cu il martın 17-də 9564 nəfər məhkumu əhatə edən "Novruz bayramı münasibətilə amnistiya elan edilməsi haqqında", 2013-cü il mayın 7-də 10 min 40 nəfərə şamil olunan "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə amnistiya elan edilməsi haqqında" və 2016-cı ilin mayında 28 May - Respublika Günü münasibətilə 10 min məhkumu əhatə edən amnistiya elan edilməsi haqqında qərarlar qəbul edib. Bütün bu amnistiya qərarlarının təşəbbüskarı isə Heydər Əliyev Fondunun prezidenti, o zaman Milli Məclisin deputatı olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva olub.

Həm 4 amnistiya aktı, həm də 33 əfv sərəncamı ilə Prezident İlham Əliyev 47 min 442 məhkumu əfv edib. Ümumiyyətlə, son 23 ildə, yəni 1996-cı ildən bugünə qədər ölkədə 65 əfv sərəncamı imzalanıb, 11 dəfə amnistiya elan olunub. Bu mərhəmət nümunələri ilə ümumilikdə 120 mindən artıq insana azadlıq bəxş edilib.

Son illərdə ölkə həyatının bütün sahələrində, o cümlədən məhkəmə-hüquq sahəsində köklü islahatlar aparılır. Nəticədə cəza siyasəti humanistləşdirilir, insan hüquq və azadlıqları daha etibarlı şəkildə təmin olunur. Hər bir vətəndaşa diqqət və qayğı, həssas münasibət Prezidentin fəaliyyətinin ən mühüm fəlsəfəsini təşkil edir.

Mərhəmətlilik, geniş qəlblilik, xeyirxahlıq, bağışlamaq bacarığı ən ali keyfiyyətlər kimi qiymətləndirilib və əfv, bağışlamaq böyük, müdrik insanlara, dövlət xadimlərinə xas olan yüksək keyfiyyətlərdir. İlham Əliyev də əfv etməyi, bağışlamağı bacaran məhz həmin aqil dövlət adamlarındandır. Bu humanist siyasəti isə xalq yüksək qiymətləndirir və bu da əhalinin ölkə rəhbərliyinə olan etimadını daha da artırır.

Atılan addımların qısa təhlili Azərbaycan dövlətinin siyasətində insan amilinə verilən dəyəri nümayiş etdirməklə yanaşı, hüquqi islahatların da zamanın tələbinə uyğun olaraq təkmilləşdirildiyini təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda "İmadəddin Nəsimi və özbək ədəbiyyatı" mövzusunda konfrans keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2019-cu il "Nəsimi ili" elan edilib.





Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şairi İmadəddin Nəsiminin yaradıcılığının təbliği məqsədilə dövlət başçısının sərəncamına əsasən ölkə daxilində və xaricdə silsilə tədbirlər keçirilir.

AZƏRTAC xəbər verir ki, belə tədbirlərdən biri də martın 28-də Beynəlxalq Mətbuat Mərkəzində keçirilib.

"İmadəddin Nəsimi və özbək ədəbiyyatı" mövzusunda konfrans "Kaspi" qəzeti, "Kaspi" Təhsil Şirkəti və Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutub.



Konfransı giriş sözü ilə açan "Kaspi" Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva Prezident İlham Əliyevin 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi haqqında sərəncamının əhəmiyyətindən danışaraq bildirib ki, bu, mütəfəkkir şairə dövlət səviyyəsində verilən dəyərin, hörmət və ehtiramın ən yüksək göstəricisidir. İmadəddin Nəsimi sözünün qüdrətindən danışan S.Vəliyeva deyib ki, o, Azərbaycan klassik poeziyasını həm məzmun və ideya, həm də yeni janrlarla zənginləşdirən, ona yeni nəfəs gətirən novator bir şair kimi tanınır. İmadəddin Nəsimi anadilli poeziyamızda çox gözəl fəlsəfi və lirik şeirlərin kamil nümunələrinin yaradıcısıdır. Bu şeirlər aktuallığını, fikir zənginliyini indi də qoruyub saxlayır. Bu, Nəsimi sözünün qüdrətinin təntənəsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu Azərbaycan ədəbi dilinin inkişafında İmadəddin Nəsiminin əvəzsiz xidmətlərindən danışıb. Akademik bildirib ki, mütəfəkkir şair anadilli poeziyamızda fəlsəfi qəzəlin kamil nümunələrinin yaradıcısıdır. O, anadilli lirik şeirləri ilə Yaxın və Orta Şərqdə ədəbi məktəb yaradan ilk Azərbaycan şairidir. M.Nağısoylu deyib: "İmadəddin Nəsimi milli varlığımız olan ədəbi dilimizin zənginləşməsi və təkmilləşməsində misilsiz xidmətləri olan qüdrətli söz ustadıdır. Onun şeirləri XIV əsr Azərbaycan ədəbi dilinin ən mükəmməl nümunələridir".

Sonra özbəkistanlı alim-tərcüməçi Tahir Qahharın "İmadəddin Nəsiminin əsərlərinin özbək dilinə tərcüməsi" mövzusunda çıxışı dinlənilib. O, Özbəkistan-Azərbaycan ədəbi əlaqələrindən, bu münasibətlərin daha da möhkəmlənməsində Nəsimi yaradıcılığının xüsusi rolundan danışıb.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Səadət Şıxıyeva "XV əsr özbək ədəbiyyatında Nəsimidən bəhrələnmələr" mövzusunda çıxışında qeyd edib ki, orta əsr Özbəkistan ədəbiyyatına nəzər saldıqda özbək şairlərin texniki, ideya və üslub baxımından Nəsimidən bəhrələndiklərini görmək mümkündür.

Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin inkişafında İmadəddin Nəsiminin yaradıcılığının mühüm rol oynadığını bildirib. O, Nəsiminin 650 illiyi münasibətilə mərkəz tərəfindən özbək dilində çap olunan "Jonani sevarman" kitabını təqdim edib. Qeyd edib ki, kitabda Nəsiminin özbək dilinə tərcümə olunmuş şeirləri və şairin AMEA-nın Əlyazmalar İnstitutunda qorunan əlyazmaları yer alıb.

Konfransda AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanovun "Nəsimi yaradıcılığında insan konsepsiyası", AMEA-nın müxbir üzvü Kamran Əliyevin "İmadəddin Nəsimi və folklor", özbəkistanlı tarixçi-publisist Şuxrat Salmanovun "İmadəddin Nəsimi və özbək ədəbiyyatı", AMEA-nın Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini Eynulla Mədətlinin "İmadəddin Nəsiminin fəlsəfəsi" mövzularında çıxışları dinlənilib.

Özbəkistanlı qonaqlara milli mədəniyyətimizi ölkələrində fəal təbliğ etdiklərinə, Azərbaycan həqiqətlərini və Ermənistanın işğalçılıq siyasətini Özbəkistan mediasında geniş işıqlandırdıqlarına görə "Kaspi" qəzeti, "Kaspi" Təhsil Şirkəti və Azərbaycan Mətbuat Şurası tərəfindən diplomlar təqdim olunub.

# Azərbaycan hökuməti ilə UNESCO arasında müqavilə imzalanıb

Mədəniyyət naziri Əbülfəs Qarayevin UNESCO-da görüşləri çərçivəsində Azərbaycan hökuməti ilə təşkilat arasında bu ilin 30 iyun - 10 iyul tarixində Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda təşkil edilməsi ilə bağlı müqavilə imzalanıb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, müqaviləni Azərbaycan hökuməti tərəfdən nazir Əbülfəs Qarayev, UNESCO tərəfdən isə baş direktorun müavini Ernesto Ottone Ramirez imzalayıb.

Sənəddə tədbirin təşkili ilə bağlı həm Azərbaycanın, həm də UNESCO-nun vəzifə öhdəlikləri əks olunub. Bununla yanaşı, müqavilədə komitədən əvvəl keçiriləcək Gənc Peşəkarlar Forumu və Abidə Menecerlərinin Forumunun təşkili ilə bağlı məsələlər göstərilib.


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Printer, skaner və surətçıxaran aparatların təmiri, ehtiyat hissələrinin yenisi ilə əvəz olunması, katriclərin dolumu xidmətlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **150 (bir yüz əlli ) manat (ƏDV xaric) iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kod: 691011**
**VÖEN: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **02 may 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **13 may 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **14 may 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***



# İmadəddin Nəsimi - 650

## Cahana sığmayan mütəfəkkir şair





# Ədəbiyyat tarixinin bahar nəsimi

**Bu il Azərbaycanda "Nəsimi ili"dir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə imzaladığı müvafiq fərmanla xalqımızın, dövlətimizin bu böyük şairinin irsinə ehtiramını ifadə edib. Bu tarixi qərarda cəmiyyətimizin Nəsimi şəxsiyyətinə münasibəti ifadə olunub. Onun düşüncə mirasına intəhasız sevgi öz əksini tapıb.**

Ondan əvvəl və ondan sonra yaşayıb-yaratmış bütün fikir adamlarımız kimi, Nəsiminin də Azərbaycan xalqına və ümumən bəşəriyyətə mənəvi əmanətləri çoxdur. Bu gün danışdığımız saf, inci kimi cilalı, şirin ana dilimiz onun əmanətlərindəndir. Azərbaycan xalqının ümumbəşəri dəyərlərə sadiqliyi, yüksək humanizmi, tolerantlıq ənənələri, istiqlal ideyalarına bağlılığı, milli dövlətçiliyimizə sadiqliyi Nəsimi kimi dühalarımızın nurundan irəli gəlir. 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunması adi bir hadisə deyil. İctimai fikir tariximizdə müəyyən rolu olmuş hansısa şəxsiyyətin sadəcə yubileyinin keçirilməsi üçün atılan addım da deyil. Bu, daha çox Nəsimi ideyalarının aktuallaşdırılmasıdır. Belə mütəfəkkirləri yetirmiş Azərbaycan xalqının nə qədər böyük xalq olduğunun dünyaya nümayiş etdirilməsidir. Belə bir yanaşma ulu öndər Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərində gördüyü işlərin daha uğurla davamıdır. Nəsiminin anadan olmasının 600 illiyi münasibətilə o zaman ulu öndər sərhədləri dünyaya qapalı kiçik bir ölkənin şairinin yubileyinin UNESCO xətti ilə beynəlxalq miqyasda keçirilməsinə nail olmuşdu. Bakıda şairin möhtəşəm abidəsi ucaldılmış, adı paytaxtın inzibati rayonlarından birinə verilmişdi. Heydər Əliyevin dəstəyi ilə çəkilən "Nəsimi" filmi yaxın-uzaq ölkələrə səs salmışdı.

İstiqlal tariximizə, Azərbaycanda aparılan dövlət quruculuğu proseslərinə nəzər salsaq, Nəsimi ideyalarının müstəqil dövlətimizin ideoloji-hüquqi əsaslarında nə qədər böyük rol oynadığının şahidi olarıq.

## Məhəbbət və gözəllik nəğməkarı

İmadəddin Nəsimi ədəbiyyat tariximizdə anadilli fəlsəfi fikrin əsasını qoyan, insana xidmət edən, məhəbbət və gözəllik nəğməkarıdır. Onun ağıl-hikmət örnəyi olan şeirləri dünyaya və həyata yeni bədii münasibətin ifadəsidir. Bu şeirləri insan və onun mənəvi əzəməti haqqında səsləndirilən himnlər də saymaq olar.

İmadəddin Nəsimi 1369-cu ildə qədim mədəniyyət mərkəzlərimizdən olan Şamaxıda dünyaya gəlmişdir. Orta əsrlərə aid bəzi qaynaqlarda Nəsiminin Bağdadın Nəsim adında yerində, Türkiyənin Bursa şəhərində, yaxud Təbrizdə anadan olması ilə bağlı müəyyən qeydlər var. XVI əsrdə yaşamış Lətifi təxəllüslü təzkirəçi şairin Julidəmu (saçları dağınıq) ləqəbi ilə tanınan bir qardaşının olduğunu, onun Şah Xəndan adı ilə tanındığını yazır. Böyük ehtimalla o, Şamaxıda yaşamış və hazırda bu şəhərdəki məşhur "Şaxadan" qəbiristanlığı da məhz onun adı ilə adlanmışdır. Yada salaq ki, görkəmli Azərbaycan şairi Seyid Əzim Şirvani ölərkən məhz bu qəbiristanlıqda dəfn olunmasını vəsiyyət etmişdi:

Mən öləndə Şaxadanda basdırın,
Çünki onun şahidi-Xəndanı var.

Nəsimi uşaqlıqdan aşıq-ozan sənətinə böyük sevgi göstərmiş, ustad alim və loğmanlardan dərs alaraq elmlərə vaqif olmuşdur. Erkən gəncliyindən başlayaraq "Seyid", "Hüseyn" və "Nəsimi" təxəllüsləri ilə bir-birindən gözəl şeirlər qoşmuşdur. İlk mərhələdə müxtəlif təxəllüslərlə yazmasına baxmayaraq, yaradıcılığının sonrakı mərhələlərində ustadı Fəzlullah Nəiminin təxəllüsü ilə həmahəng səslənən Nəsimi təxəllüsünə daha çox sadiq qalmışdır. Bunu özünəməxsus tərzdə şeirin qüdrəti ilə belə ifadə edirdi:

Adımı həqdən Nəsimi yazaram,
Bil bu mənidən ki, siməm, ya zərəm?

Bir qəzəlində isə şair künyəsinin - yəni ya övladının, ya da ona mənən övlad sayılan bir oğlanın adı ilə Əbülfəzl (Fəzlin atası) olduğunu göstərir.

Çün Nəsiminin Əbülfəzl oldu haqdan künyəsi,
Cümlə əsmanın hürufi ayini-əlqabındadır.

O, özünün də şeirlərində qeyd etdiyi kimi, laməkan şair idi. Həyatı boyu bir sıra ölkələri gəzib-dolaşaraq öz hürufi ideyalarını yaymağa çalışırdı. Ayrı-ayrı şeirlərindəki yer adlarına istinadən şairin müxtəlif vaxtlarda Rumda, Bursada, Qaramanda, Bağdadda, Maraşda, Şam, Misir, Hələb, Şamaxı şəhərlərində yaşadığını güman etmək olar.

## "Gərçi bu gün Nəsimiyəm..."

Öz məsləki və əqidəsi uğrunda qanı və canı ilə mübarizə aparan Nəsiminin səsi-sorağı Şərqin müxtəlif şəhərlərindən gəlirdi. Şair bu ölkələrdə çox yaşaya bilmirdi. Çünki davamlı təqiblərlə üzləşirdi. Onu Azərbaycanda sıxışdırırdılar. O dövrdə Azərbaycanda vəziyyət çox qarışıq idi. Hələ Nəsiminin gənclik illərində Əmir Teymur İrana və Qafqaza hücuma keçmişdi. Şirvan hakimi Şeyx İbrahim Teymurdan xilas olmaqdan ötrü onunla sülh bağlayaraq Şirvan dövlətinin müstəqilliyinə nail ola bilmişdi. Amma çox keçmədi ki, Qızıl Orda xanı Toxtamış xan Azərbaycana soxulmuş, o, geri çəkilən kimi Teymur yenidən Azərbaycanı istila etmişdi. Onda Naxçıvan yaxınlığındakı Əlincə qalası Teymur ordusunun mühasirəsində idi. Qala fasilələrlə 14 il mühasirədə saxlanmışdı. Ordu Azərbaycanın qədim şəhərlərindən olan Qəbələni də viran qoymuşdu. Teymur Azərbaycanda hakimiyyəti oğlu Miranşaha tapşırmışdı. Bu dövrdə Azərbaycan xalqı Teymurilərə qarşı fəal müqavimət göstərirdi. Bu baxımdan dini-siyasi müqavimət hərəkatı olan hürufiliyin yayılması üçün bu torpaqlarda şərait vardı. Bu hərəkatın banisi və lideri Fəzlullah Nəimi idi. O öz ideyalarını yaymaqdan ötrü bir çox Şərq ölkələrini gəzib-dolaşırdı.

Nəsiminin yaşadığı dövrdə Azərbaycan ərazisində Teymurilərə qarşı xalq üsyanlarının ardı-arası kəsilmirdi. Belə ağır bir dövrdə - 1394-cü ildə Nəsimi Bakıda Fəzlullah Nəimi ilə görüşür. Onun hürufilik təriqətini qəbul edir. Elə o zamandan da hürufilik ruhunda şeirlər yazaraq hər yerdə yaymağa çalışır. Siyasi-fəlsəfi ruhlu şeirlərində hürufi fikirlərini qələmə alaraq cəsarətli, qabaqcıl ideyalar təbliğ edir, ömrünü yollarda, səfərlərdə keçirir, əzab və işgəncələrlə dolu həyat sürür.



## İnsana yeni münasibət

1394-cü ildə Miranşah Şeyx İbrahimin fitnəsi ilə Nəimini tutub Əlincə qalasının yaxınlığında amansızlıqla edam etdirir. Ustadın qətli bütün hürufiləri, o cümlədən Nəsimini çox sarsıdır. Nəiminin müridləri də böyük təqiblərlə qarşılaşırlar. Nəsimi Azərbaycanı tərk edərək Anadoluya sığınır. Bir müddət burada yaşayır. Bursada Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının türkcəyə tərcüməçisi şair Şeyxi ilə görüşüb yaxınlaşır. Bektaşilik təriqətinin başçısı Hacı Vəli Bektaşi az bir zamanda Anadoluda sevilib səsi-sorağı dillərə düşən Nəsiminin nüfuzundan çəkinib onu qəbul etməkdən ehtiyatlanır. Ancaq ziyalılar Nəsimi şeirindən, onun işıqlı sözlərindən ilham alırlar. Bursada Nəsiminin pərəstişkarları gündən-günə artır. I Sultan Muradın zamanında Bursa və Anadoluda hürufilər ciddi şəkildə cəzalandırılırdılar. Ona görə də Nəsimi bu ərazilərdə çox qala bilmir. O, təqiblərdən yaxa qurtarmaq üçün ömrünün son illərində Hələb şəhərinə gəlir və 1417-ci ildə burada edam edilir.

Şəhər hakimlərinin bu zülmkar qərarına səbəb Nəsimi sözünün qüdrəti, insanların qəlbinə asanlıqla yol tapması idi. Nəsimi burada ustadı Nəimidən də böyük səs salmışdı. Onun təriqət yolunu davam etdirənlərin sayı çoxalmışdı. Demək olar ki, heç kimin etmədiyini o etmişdi. Nəsimi olmasaydı, hürufilik sönüb bitərdi. Onun şeirləri xalq arasında xüsusi hava, gözəl bir ahənglə oxunurdu. Nəsiminin şeirləri gözəl bədii üslubu ilə dinləyicilərin qəlbini ovsunlayırdı.

Nəsimidən danışan o dövrün bütün müəllifləri onu eşq fədaisi, igid, qorxmaz, mübariz bir şair-mütəfəkkir kimi səciyyələndirirlər. Onun sufi-hürufi məclislərində xüsusi hava ilə oxunan şeirləri öz ahəngdarlığı, bədii-poetik və şəkli xüsusiyyətlərinə görə aşıq şeiri formalarını xatırladır. Amma ilahi və nəfəsləri xalq şeiri şəkillərindən seçilir. Onlar bədii-fəlsəfi qayəsi və məzmununa görə bir-birindən fərqlənir.

Azərbaycan poeziyası tarixində İmadəddin Nəsimi siyasi-fəlsəfi şeirin ilk böyük nümayəndəsi sayılır. Onun əsərlərində poetik fikirlə fəlsəfi fikir birləşir. Fikir, mühakimə hissə, duyğuya üstün gəlir. Şair insana yeni münasibət bəsləyir. Cəmiyyətdə ictimai ədalət və həqiqət axtarır. İnsanı öz ağlı və kamalı ilə uca məqamda görmək istəyir. Nəsiminin bütün şeirləri insan və onun gözəlliyi, səadəti haqqında yazılmış nəğmələrdir. Öz yaradıcılığını xalqın taleyi və azadlıq arzuları ilə bağladığına görə onun şeirləri yeni ruhu və nəfəsi ilə bənzərsizdir.

## Zərrədə günəş

Nəsimi yaradıcılığının ilk çağlarından sufilik görüşlərini şeirə gətirmişdi. Sifizm təriqətində əksini tapan bir sıra əqli-mənəvi və fəlsəfi düşüncələr onun diqqətini cəlb edirdi. Nəsimidən çox-çox əvvəllər və onun yaşadığı dövrdə sufizm geniş ərazidə yayılmışdı. Feodal ideologiyasına qarşı duran bir inam və etiqad fəlsəfəsi kimi ayrı-ayrı zümrələri əhatə etmişdi. Mənəvi saflıq, səfa və tək varlıq mənası daşıyan sufi istilahları və başqa terminlər geniş yayılırdı.

Sufi-panteist şeirlərində Nəsimi ali bir eşqi tərənnüm edərək İnsan-Allah anlayışlarını irəli sürür, zərrədə günəş axtararaq varlığın bir vücudun vəhdətindən yarandığını söyləyir. Şairin lirik qəhrəmanı da mütəfəkkir və arif aşiqdir. Yüksək bir eşq onu kamala çatdırır. Həyat yoluna işıq saçaraq öz yaradıcısı ilə qovuşdurur. Bu aşiq özünü bütün qüsurlardan, keçici meyillərdən təmizlədiyinə görə ruhən və mənən əlçatmaz zirvələrə yüksəlir, nəhayət, həyat faciəsi və kədərindən qurtulur. Nəsimiyə görə, belə insanın məşhir sufi alimi Həllac Mənsur kimi (X əsr) "ənəlhəq" (mən haqqam) deməyə tam haqqı var. Həyatda ən böyük həqiqət də, yaradıcı da, əsrarəngiz sirlər mənbəyi də elə insandır. Buna görə də şair bu qadir insanı öz olum və ölüm yolunu eşq günəşi ilə işıqlandırmağa səsləyir. Məhəbbəti vasitəsilə həqiqəti tapacağına inanır.

Nəsimi şeirində aşiq haqqı tapmış bir insandır. Dərin düşüncələrdən sonra o, haqqı, ideyanı kənarda deyil, özündə axtarıb tapır. Haqqın göylərdə deyil, özündə olduğunu dərk edir. Bunun üçün də öz varlığında Yaradanla insanın birləşdiyi qənaətinə gəlir:

Utanır arifin əqli, sənə insan demək neyçin
Ki, insandır deməz kimsə sənə ya Xaliqük-insan.

Şairə görə, həqqi ancaq kamil və yetkin insan görə bilər. Belə insanlar sevilməyə, alqışa layiqdirlər. Kamil insan öz ağlı və eşqi ilə insanların gözlərini açmağa, onların gözləri qarşısındakı zülm pərdəsini qaldırmağa, həyata günəş kimi işıq saçmağa qadirdir.

## Səslər, sözlər, hərflər

Nəsimi dövründə hürufilik bir məslək, əqidə, dünyagörüşü kimi geniş yayılmışdı. Onun əsasında insana yeni bir münasibət, yeni insan anlayışı dururdu. Öz kökü etibarilə xalqa bağlı olan bu təriqət onun ruhunu, ictimai-siyasi görüşlərini, həyata münasibətini əks etdirirdi.

Qeyd etdiyimiz kimi, hürufiliyin yaradıcısı Nəimi, beşiyi isə Azərbaycan idi. Bu hərəkat Təbrizdən başlayaraq bütün Yaxın və Orta Şərq ölkələrini bürümüşdü. Nəsimi hürufiliyi Nəimidən qəbul edəndən sonra onun dünyagörüşündə yeni bir oyanış baş qaldırmışdı. Buna görə də şeirləri yeni mübariz ruh, ictimai-siyasi məzmun kəsb edirdi. Şairin lirik qəhrəmanı artıq əvvəlki aşiq deyil. Onu ictimai düşüncə və ideallar məşğul edir. O, əqli-mənəvi saflıqla məhdudlaşmayaraq öz həyat fəlsəfəsi uğrunda çarpışıb-vuruşur. Nəsimidə hürufi panteizmi sufi panteizmindən fərqlənərək Allahın özünü belə insanın simasında axtarır. Lirik qəhrəman siyasi-ictimai ideallara meyil göstərir. Din və irfana tamam yeni bir baxış əks etdirir.

Yada salaq ki, sufizm və hürufilik birbirinə hər nə qədər yaxın olsa da, onların arasında tam bərabərlik qoymaq olmaz. Sufilikdə məhəbbətə, hürufilikdə isə ağla üstünlük verilirdi. Hürufilərə görə, ağıl ilə kainatı, təbiəti və insanı dərk etmək mümkündür. Ağlın əsasında da səs, söz və hərflər durur. Nəsimidə hərflər və rəqəmlərin bu mənada öz aləmi var. İnsan öz idrakının gücü ilə "Mən haqqam" məqamına yüksələ bilər. Bu baxımdan Nəsiminin:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü-məkana sığmazam ,-

beyti ilə başlanan şeiri çox ibrətamizdir.

Nəsimi maddi və mənəvi cahanları öz varlığında birləşdirən insanın bu cahana sığmamasını iki dünyanın bir dünyaya sığmaması və insanın məkansız gövhər olması ilə əsaslandırır. Bu dünyaya sığmayan insanın cismi, bədəni deyil, ağıl və idrakıdır. İnsan cismən yox, mənən və ruhən öz dünyasına sığmır. Beləcə, daha yüksəklərə ucalır. Bütün canlılardan fərqli olaraq insan xəyalı kainatı, Ayı, Günəşi gəzib-dolaşır, öz yaradıcısı ilə vəhdət yaradır. Cismən yerdə yaşayan insanın fikir və xəyalının sabit yeri yoxdur. Daha doğrusu, o, məkansızdır, yersizdir, öz dünyasından çox-çox uzaqlara qanad çalır. Bir sözlə, Allah hər yerdə olduğu kimi, insan da xəyalən hər yerdə ola bilir. Şair "İnsan allahdır" deyəndə, əlbəttə ki, bunu nəzərdə tutur. İnsanı Allah və kainatla vəhdətdə götürür.

"Sığmazam" şeirini Nəsimi ulu keçmişə malik insanın fikrən və xəyalən heç bir çərçivəyə, qəfəsə sığmaması fikri ilə tamamlayır. İnsan haqqında düşüncənin zaman və məkan çərçivəsinə, qəfəsə sığa bilməməsini gur səslə bütün dünyaya elan edir. "Cism və can" mücəssəməsini yerdən göyə ucaldaraq onun surətində, varlığında böyük mənaların gizləndiyini bildirir.

## Nadanlıq və cahillik bəladır

İdrak anlayışı, insanın özünüdərki Nəsimi yaradıcılığında xüsusi yer tutur. Şairə görə, insan həyatı əqli-mənəvi yüksəklik mərhələlərindən ibarətdir: şəriət, təriqət, mərifət və həqiqət. Bu mərhələlərdən keçib gedən insan müdriklik səlahiyyəti qazanır. Haqqa qovuşur, həqiqəti arayıb tapır. Deməli, başqa sufi alimlər kimi, Nəsimi də belə hesab edirdi ki, sirləri anlamaq üçün insan ali tərbiyəyə möhtacdır. İdrak tərbiyəsi üçün hər hansı bir insan özünə mürid (ustad) tapmalı, onun göstərişi və məsləhətlərinə sadiq qalmalıdır. Ustad və müəllimsiz heç kəs öz idrakını, şüurunu parlada bilməz.

Nəsimi yaradıcılığında sevgi şeirləri də üstünlük təşkil edir. Şair ilahi və dünyəvi eşqi vəhdətdə görür. Onların birini digərinin davamı və təsdiqi kimi mənalandırır. Nəsimi ibadət və çilədənsə eşq ilə Allaha qovuşmağa üstünlük verir. Hürufi panteizmini təbliğ edərək hər şeyi Allah sanır. Hər şeyin əsasında hərf, söz və səslərin durduğunu bildirir. Hər şeyin dörd ünsürdən yarandığını iddia edir. Onun nəzərincə, Allah, insan, hərf və ünsür eynidir.

Nəsiminin ilahi və dünyəvi məzmunda yazdığı şeirlərində də insan problemi əsas məsələdir. Böyük şair insanın gözəllik və səadətini, onun könül sərbəstliyi və mənəvi azadlığını, əqli-mənəvi yetkinliyini hər şeydən üstün tutur. İnsanı həyatın maddi və mənəvi gözəlliklərindən layiqincə kam almağa çağırır. Ona görə də insanın həyat sevgisinə qarşı çıxan nə varsa, hamısını pisləyir, tənqid və ifşa edir. Onları div, şeytan adlandırır. Orta əsrlər həyatına və ictimai mühitə etiraz edən Nəsimi nadanlığı, cahilliyi ən böyük bəla sayır, şeirlərində yaşadığı dünyanın bədii mənzərəsini yaradır. Şair öz zəmanəsində sözübütöv, doğrucul və vəfalı bir insan axtarıb tapa bilmir. Sanki bu aləm saxtakarlıq, yalan və hiylə üzərində qurulmuşdur. Onun heç bir sədəfində saf inci yoxdur, hər bir insanın ürəyi fitnə və hiyləgərlikdən uzaq deyil:

Qanı bir əhdi-peymanı bütün yar?!
Qanı bir qövlü-gerçək, doğru dildar?!
Qanı həqqi bilən bir gerçək ər kim,
Ola doğru anın dilində göftar?!

Başqa bir qəzəlində isə Nəsimi sədaqətli bir dost, sirdaş tapa bilməməsindən şikayətlənir. Bu dünyanı tikanlı bir bağa bənzədir. Bu gülsüz yerdə gülzar axtarmağın boş, mənasız bir iş olduğunu bildirir. Tikanlı dünya gül deyil, tikan bitirir, özü vəfasız, dəyanətsiz olduğundan vəfalı, etibarlı yar-yoldaş yetirmir. Şair öz könlünə müraciət edərək yalnız onu özünə yaxın və doğma sanır:

Sən sana gər yar isən gəl, ey könül, yar istəmə!
Yarü dildar ol sana sən yarü-dildar istəmə!
Bivəfadir çün bu aləm, kimdən istərsən vəfa?
Bivəfa aləmdə sən yari-vəfadar istəmə!
Gül bulunmaz bu dikənli dünyanın bağında çün,
Əbsəm ol, bihudə gülsüz yerdə gülzar istəmə!

Nəsimi şeirlərindəki nəsihət və çağırışlar da mənalı və ibrətamizdir. Görkəmli Azərbaycan ədibi və ədəbiyyatşünas alimi Mir Cəlal Paşayev vaxtilə yazırdı ki, onun romantikası göyləri yox, ictimai zəmini, real həyatı araşdırmışdır. Şair insanın gözəl və nəcib cəhətlərini onun xeyirxahlığında, yaxşılıq etməsində, zülm və şərdən uzaqlaşmasında görürdü.

## Kainata ünvanlanmış suallar

Nəsimi fəlsəfi şeirlərindən fərqli olaraq, didaktik-nəsihətamiz şeirlərində müasiri olan insan, onun həyat və məişəti barədə düşüncələrə dalır. Mücərrəd fəlsəfi düşüncələrini varlıq və insan barədə gerçək, real mülahizələrlə əvəz edir.

Şair bütün kainata sual dolu nəzərlə yanaşır. Orta yüzillikləri düşündürən bu suallar şairi də bütün yaradıcılığı boyu düşündürüb-daşındırır. Nəsimi öz yaradıcılığında əski Şərq və Qərb elmi düşüncəsini birləşdirən mütəfəkkir kimi ucalır. Bədii söz sənətinin heç zaman solmaz, bir-birindən gözəl incilərini yaradır. Azərbaycan ədəbiyyatı tarixini yeni bir üslub, deyim tərzi, yeni surət və lövhələrlə zənginləşdirir.

Onun həyat sevgisi və duyğularını əks etdirən nəğmə və şərqiləri məzmunca da, dil-üslub etibarilə də səmimi və aydındır. Şairin belə şeirlərində işlətdiyi istixarə, məcaz, bənzətmə və bədii mübaliğələri çox əlvan və rəngarəngdir. Ana dilindən alınan bu bədii ifadələr canlı dilimizin özü kimi aydın, gözəldir. Bulaq suyu kimi saf və şəffafdır, dəniz incisi kimi parlaq və dəyərlidir:

Üzünü məndən nihan etmək dilərsən, etməgil!
Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil!
Bərgi-nəsrin üzrə mişkin zülfünü sən dağıdıb,
Aşiqi bixaniman etmək dilərsən, etməgil!

Bu şeirdə bütün bənzətmə və məcazlar həyatdan gəldiyi üçün təbii və gözəldir. Nəsiminin gözəlləmə sayıla biləcək bu şərqiləri insan və onun gözəlliyi haqqında yazılmış nəğmə təsiri bağışlayır. Sevgilisinin surətini solmaz və zərif boyalarla işləyən şair orta əsr gözəlinin unudulmaz, yaraşıqlı obrazını yaradır. Qəzəldəki fikir və üslub aydınlığı şeir tariximizdə yeni bir cığırın başlanğıcıdır. Nəsimi şeirində musiqi ahəngdarlığı, ritm onun əsas bədii ünsür və məziyyətlərindən biridir. Şair cinasdan istifadə etməklə bunu təmin etməyə çalışır və şeirə yeni bir ahəng, təravət gətirir.

Düşdü yenə dəli könül gözlərinin xəyalinə,
Kim nə bilir bu könlümün fikri nədir, xəyali nə?
Al ilə ala gözlərin aldatdı aldı könlümü,
Alını gör nə al edər, kimsə irişməz alinə.

## Şeirə şöhrət gətirən şair

Nəsimi insan gözəlliyini təbiət gözəlliyindən daha ülvi və mənalı sayırdı. Şairə görə, sanki təbiət, yer, göy öz gözəlliyini, təravətini insandan alır. Ayın aypara çevrilməsi məhz sevgilinin aypara qaşlarına bənzəmək üçündür. Qızılgül rəngini, ətrini gözəlin al yanaqlarından almışdır, bənövşənin xumar gözləri yarın məstanə gözlərinin həsrətini çəkməkdəndir. Nəsimi öz həyat sevgisini, lirik qəhrəmanının kədərini, incə, zərif duyğularını yüksək bir şeiriyyətlə, aydın bir dil ilə ifadə edərək dünyəvi poeziyanın gözəl, kamil bir nümunəsini yaradır. Şairin belə şeirləri hələ öz zəmanəsində yeni bir ədəbi-tarixi hadisə kimi qarşılanırdı. Orta əsr alimi Lətifi (XVI) Nəsiminin məhz bu cür sadə, aydın bir dil və üslubda yazdığı şeirləri nəzərə alaraq yazırdı: "Türk şeiri ilə ən əvvəl Nəsimi şöhrət tapmışdır".

Nəsimi şeirində Ay da, Günəş də, yerlər də, müqəddəs ruhlar da insan gözəlliyindən, insanın böyüklük və əzəmətindən danışır. Onun ağlı, zəkası və gözəlliyi qarşısında baş əyir. Nəsimiyə görə, ən kamil insan öz əqidə və məsləki uğrunda meydana atılan insandır. "Başımı top edib yenə meydana girmişəm" deyən şair onları öz müasirlərinə nümunə göstərirdi. Həqiqi ər kişilərin, sevən aşiq və fədailərin yerinin döyüş və mübarizə meydanı olduğunu bildirirdi. Yüksək bədii zövqə malik olan Nəsimi incə, zərif və yeni-yeni mübaliğə, bənzətmə və istiarələri şeirə gətirmişdi. Bədii mübaliğəyə daha geniş yer verən şair öz poetik və fəlsəfi fikirlərini aydın və səmimi bir dillə üzə çıxarır:

Ayın hilali əgərçi günəşdən alır nur,
Bu ayı gör ki, günəş nur alır hilalından.

Nəsimi yaradıcılığında insan gözəl, səmimi və ucadır. Onun ağıl və idrakı ilə yanaşı, zahiri aləmi də öz təravəti və gözəlliyi ilə seçilir. Şair insanın üzərində, varlığında Tanrının əlamət və keyfiyyətlərini axtarıb tapır. İnsanı ucaldır, ülviləşdirir. Ona mənəvi və cismani əziyyət verənlərə qarşı etiraz səsini qaldırır. İnsan gözəlliyi haqqında şeirlərində onun hüsn-camalında öz gözəllik ideallarını axtarıb tapır. Dünya və həyatı insandan ayrı təsəvvür etmir.

Nəsimi belə bir qənaətə gəlir ki, insan həm incidir, həm sədəfdir, həm yaradandır, həm yaradıcıdır, həm qızılgüldür, həm də yasəməndir. Bütün gözəlliklər, varlıq, yer və göy məhz ona xidmət üçün yaranmışdır. İnsan olmasa, bütün aləm çox mənasız və miskin görünərdi.

İnsana, onun gözəllik və ləyaqətinə həsr etdiyi bu könül nəğmələri hələ şairin öz sağlığında "nəsimilər" adlandırılaraq, eldən-elə dolaşırdı. Kainatın günəşi olan insanı yüksəldən, sevdirən bu şərqilərdə insanın işıqlı, aydın surəti, böyüklüyü bütün Şərq ellərini heyrətə salmışdı. İlk dəfə olaraq insan məhz öz gözəlliyindən ilham alırdı. Ay, günəş deyil, öz surəti qəlbinə, şüuruna işıq saçırdı. Özünü anlamağa və sevməyə başlayırdı.

## "Bahar oldu, gəl, ey dilbər..."

Nəsimi sevgi və gözəllik şərqilərində ağac, dəniz, qənd, şəkər, müşk, ay, günəş, qızılgül, yasəmən və başqa bu kimi obrazlardan bol-bol istifadə edir. Həyatdan aldığı bu real və dünyəvi surətlərlə insani gözəlliyi, müasirlərinin istək və diləklərini təbii və səmimi bir üslubda əks etdirir. Təbiət gözəlliklərinin vəsfi də Nəsimi şeirində insanla əlaqələndirilir. Şair ən çox bahar fəslini, Novruz bayramını sevib poetik bir dillə qələmə alır. Nəsimiyə görə, baharın gəlişi insanların ürəyində yeni sevinc duyğularının oyanması deməkdir. Bütün fəsillər kimi, bahar fəsli də insanın qəlbi ilə sanki həmahəngdir.

Bahar oldu, gəl, ey dilbər, tamaşa qıl bu gülzara,
Buraxdı qönçələr pərdə bəşarət bülbüli-zarə.

Xalq mahnı və şərqilərinin Nəsimi yaradıcılığına təsiri çox böyükdür. Xalqın hikmət bulağından su içmiş şairin el nəğmələri ilə səsləşən şeirlərində axıcılıq, ahəngdarlıq və səmimiyyət daha parlaqdır. Burada "Kitabi-Dədə Qorqud"u xatırladan söz və ifadələrin, bədii deyim və ifadə tərzlərinin olması da çox səciyyəvidir. Əski Şərq nəğmələrini xatırladan məqamların Nəsimi şeirinin əsas tərkib hissəsinə çevrilməsi onun öz ideya və fikirlərini şifahi şəkildə yaymaq məqsədindən irəli gəlirdi. Şair bu könülaçan şərqiləri ilə müasirlərinin qəlbinə, ruhuna nüfuz edir, onları əqli-mənəvi kamilliyə səsləyirdi.

Nəsimi şeirlərinin lirik qəhrəmanı tez-tez canlı və cansız varlıqlara üz tutmaqla öz qəlb aləmini işıqlandırır. Müraciət hədəfinin dəyişməsi ilə aşiqin düşüncə və duyğuları da dəyişir, yeni-yeni rəng alır. Sevgilisinə üz tutan aşiq dərdindən danışır, acı həyat və taleyindən şikayətlənir. Öz təxəllüsünə müraciət edəndə isə Nəsimi nəsihətamiz fikirlərini irəli sürür. Ümumiyyətlə, *şəha, ey könül, ey pəri, dilbəra, ey həbib, cana* və s. bu kimi müraciətləri aşiq-qəhrəmanın dünya və insanlara müraciətidir.

Qədim dini-tarixi kitablar, onlarla bağlı obraz, süjet və rəvayətlər Nəsimi yaradıcılığında yeni məna, məzmun qazanır, yeni bir ideya və konsepsiyanın ifadəsinə çevrilir. Şair bir sıra şeirlərində Məhəmməd peyğəmbərin, Musa peyğəmbərin, İsa peyğəmbərin, Xızırın, Süleymanın, Bilqeyisin, Yusifin və başqalarının adlarını çəkir, onlarla bağlı əfsanələri xatırladır. Yusif deyəndə ağlı, gözəlliyi, Süleymandan danışanda müdrikliyi, İsanı xatırlayanda onun öz nəfəsi ilə ölüləri diriltməsini, Xızırın dirilik suyu içməsini, Musanın Tur dağında Allahla danışmasını yada salır. Cənnəti o biri dünyada deyil, məhz bu dünyada axtarır. İnsanın öz qəlbində həqiqəti tapmasını cənnət adlandırır.

Nəsimi sözü, düşüncəsi bir məktəbdir. Bu il Azərbaycanda elan olunmuş Nəsimi ili, bu təşəbbüs çərçivəsində keçirilən tədbirlər isə bu hikmət dəryasından öyrənmək, öyrəndiklərimizlə insanlığa fayda vermək üçün bütün dünyaya ünvanlanmış çağırışdır. Öyrənək, kamilləşək, gələcək nəsillər üçün daha gözəl bir dünya quraq.

***Nurlana ƏLİYEVA,***
***Bakı Slavyan Universitetinin rektoru, professor,***
***YAP Qadınlar Şurasının sədri***



# DÜNYA



## İslamı qəbul etmiş amerikalı müğənni Fələstini dəstəklədi

Bu yaxınlarda islamı qəbul etmiş amerikalı müğənni Della Maylz özünün sosial şəbəkələrdəki akkauntunda Fələstini dəstəkləmişdir.



Donald Trampın İsrailin Colan yüksəklikləri üzərində suverenliyini tanıyan sənədi imzalaması və İsrail tərəfindən Qəzzə bölməsinin bombardmanını şərh edən müğənni yazmışdır: "ABŞ-ın bu utanclı və ədalətsiz qərarına görə nə qədər fələstinli uşağın öz ailələrindən məhrum olacağını kim bilir. Heç şübhəsiz, Colan yüksəkliklərinin əsl sahibi Allahdır. Allah səni qorusun, Fələstin. Allah səbirli olanları sevir. İndi Fələsin səbir etməlidir. Mənim ürəyim səninlə döyünür, Fələstin!"

Xatırladaq ki, Della Maylz bir çox amerikalı ulduzun, o cümlədən Maykl Ceksonun və Uitni Hyustonun bek-vokalçısı olub.

Soul janrında çıxış edən tanınmış amerikalı müğənni Kraystçörçdəki hadisələrdən sonra Türkiyəni ziyarət edərkən islamı qəbul etmək qərarına gəlmişdir.

## Tramp: "Amerikalılar Aya qayıtmalıdır"

ABŞ Prezidenti Donald Tramp tələb etmişdir ki, yaxın 5 il ərzində NASA agentliyi "hər bir vasitə ilə amerikalı astronavtları Aya qaytarsın". Bu barədə ABŞ-ın Milli Kosmik Şurasında çıxış edərkən vitse-prezident Mayk Pens məlumat vermişdir.



Ölkənin kosmos sahəsində siyasətinə kuratorluq edən və şuranın başçısı olan Pensin dediyinə görə, ABŞ XXI əsrdə adamları "Amerika torpağından Amerika raketində" Aya göndərəcək ilk dövlət olmalıdır.

"RİA Novosti" agentliyinin xəbərinə görə, NASA-nın 2020-ci il üçün büdcə layihəsində amerikalı astronavtların 2028-ci ildə Aya enəcəyi planlaşdırılmışdır.

## BMT TŞ ABŞ-ın Colanla bağlı qərarını dəstəkləmədi

Suriya işğal olunmuş Colan təpələri ətrafındakı vəziyyətlə bağlı BMT Təhlükəsizlik Şurasını (TŞ) təcili iclas keçirməyə çağırmışdır. Çağırış ABŞ-ın İsrailin Colan yüksəklikləri üzərində suverenliyini tanımaq qərarına cavab olaraq Suriyanın BMT-dəki daimi nümayəndəsi tərəfindən səsləndirilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.



Xatırladaq ki, bu günlərdə Prezident Donald Tramp İsrailin Baş naziri Benyamin Netanyahunun iştirakı ilə Ağ evdə "ABŞ-ın İsrailin Colan təpələri üzərində suverenliyinin rəsmən tanınması haqqında" fərman imzalamışdır.

Sənədi imzaladıqdan sonra Amerika lideri vurğulamışdır ki, ABŞ "İsrailin özünümüdafiə hüququnu qoruyacaq". Dünən BMT TŞ-nin iclası keçirilmiş və heç bir ölkə ABŞ-ın Colan təpələri ilə bağlı qərarını dəstəkləməmişdir. Qurumda təmsil olunan 14 ölkə yekdilliklə razılaşmışdır ki, Colan təpələri İsrailin tərkib hissəsi deyil.

Bu arada Avropa İttifaqı da İsrailin Suriyaya məxsus Colan təpələri üzərində suverenliyini tanımayacağını bəyan etmişdir. Bu barədə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerininin bəyanatında məlumat verilir.

İsrail 1967-ci ildən Suriyanın Colan təpələrinə nəzarət edir.

## Əfqanıstanda bombardman zamanı uşaqlar həlak oldu

Əfqanıstanın Gündüz şəhərində koalisiya qüvvələrinin hərbi əməliyyatı nəticəsində 13 nəfər, o cümlədən bir ailənin üzvü olan 10 uşaq dünyasını dəyişmişdir. Bu barədə "əl-Cəzirə" telekanalı xəbər verir.



Məlumata görə, faciə ilə üzləşmiş ailə toqquşmalardan bir neçə gün əvvəl Dəşti-Arçi rayonundan Gündüzə gəlmişdir. Daha üç uşağın yaralandığı bildirilir.

BMT-nin xəbərinə görə, ötən il Əfqanıstanda vətəndaş müharibəsi zamanı 500 nəfərdən çox mülki şəxs hava zərbələrinin qurbanı olmuşdur. Uşaqlar arasında tələfat hər il artır.

## Avropa ölkələri yay vaxtına keçməyəcək

Avropa Parlamentinin deputatları məcburən yay vaxtına keçidi ləğv etmək təklifini dəstəkləmişlər. Avropa İttifaqına (Aİ) üzv olan hər bir dövlət 2021-ci ildən başlayaraq ildə iki dəfə saatın əqrəblərini irəli, yaxud geriyə çevirib-çevirməyəcəyini özü müəyyən edəcək.



Mövcud qaydalara uyğun olaraq, Avropa İttifaqı tərkibindəki hər bir ölkə mart ayının sonuncu bazar günü saatları yay vaxtına keçirir, oktyabrın sonuncu bazar günü isə qış vaxtına qayıdır.

Avropada bu məsələ ilə bağlı ictimai dinləmələr keçirilmişdir. Respondentlərin 84 faizi vaxtın dəyişdirilməsinə qarşı səs vermişdir.

2001-ci ildən Aİ-də yay vaxtına keçid məcburidir və daxili bazarın işinin yaxşılaşdırılmasına, habelə elektrik enerjisinə qənaət olunmasına yönəldilmişdir. Bildirilirdi ki, bunun nəticəsində transsərhəd ticarəti və Aİ-yə səfərlər asanlaşacaq. Lakin enerji qənaəti cüzi olmuş, Aİ-nin bir sıra əsas ticarət tərəfdaşları, o cümlədən Çin, Rusiya və Türkiyə yay vaxtına keçmir.

Elmi tədqiqatlar sübuta yetirmişdir ki, vaxtın dəyişdirilməsi insanların səhhətinə mənfi təsir göstərir.

## Şərqin Cenevrəsi - Bakı

Dünyada baş verən siyasi proseslər, münaqişələr tektonik silkələnmələr kimi bəzi dövlətləri çökdürür, gücsüz və aciz edərək bütün qlobal proseslərdən təcrid edir. Planetdə baş verən qanlı çaxnaşmalar və müharibələr hətta inkişaf etmiş ölkələri, möhtəşəm şəhərləri tənəzzülə uğradır. İraqda, Suriyada və digər ərəb ölkələrində minlərlə yaşayış məskəni, tarixi minilliklərlə ölçülən şəhərlər yerlə-yeksan edilir, xarabalıqlara çevrilir.

Bakı tədricən beynəlxalq siyasətin vacib oyunçusu kimi irəli çıxır, Rusiya kimi nəhəng dövlətlə güclü hərbi alyansı təmsil edən NATO arasında uğurlu danışıqların aparılmasına təminat verən siyasi meydan statusunu qazanır. Bakının ABŞ, Rusiya və NATO arasında görüşlərinin keçirilməsi üçün təkrar-təkrar seçilməsi təsadüfdən daha çox vacib zərurətə çevrilir. Məhz bu görüşlərdə Bakının vasitəçiliyi Azərbaycan paytaxtına beynəlxalq siyasətin mərkəzi kimi vacib danışıqların aparılması üçün balanslaşdırılmış məkan statusunu verdi. Azərbaycanın bir sıra geostrateji ssenarilərdə neytrallığını qorumaq bacarığını Vaşinqton da, Brüssel də, Moskva da etiraf edir. Amerikalı ekspert onu da məxsusi qeyd edir ki, Azərbaycan hər iki tərəfi təmsil edən hərbi liderlər arasında tarixi görüşlərin keçirildiyi məkana çevrilir. Rusiyalı ekspertlər də hesab edirlər ki, Azərbaycan belə görüşlərin təşkil edilməsi üçün yüksək infrastruktura malikdir, gözəl təyyarə limanına, yüksəksəviyyəli mehmanxanalara malikdir. Lakin başlıca meyar Azərbaycanın bu dialoqlarda aydın və şəksiz neytrallığını qorumasıdır.

NATO da, Rusiya da əmindirlər ki, Bakı hər iki tərəfə sakit, düşünülmüş, qarşılıqlı rəğbətə söykənən münasibətlər sərgiləyir, gizlin qulaqasmalara və məlumatların sızmasına yol vermir.

Dünyanın ən məşhur siyasi simaları Bakı ilə ünsiyyətdən zövq alır, bu şəhərin diplomatik müstəvidə Şərqin Cenevrəsinə çevrilməsini etiraf edirlər. Eyni zamanda beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin Azərbaycana böyük dəstəyi və etimadı var, ölkəmiz təhlükəsizlik və mədəniyyətlərarası dialoqla əlaqədar əhəmiyyətli məsələlərin həllində mühüm rol oynayır, sülhməramlı əməliyyatlarda iştirak edir, koalisiya qüvvələrini nəqliyyat və logistika dəstəyi ilə təmin edir.

Sonuncu forumda Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani yeni dünya quruluşunun yaradılmasının zərurətini bildirdi, müharibə və yoxsulluğun qarşısının alınması istiqamətində səylərin artırılmasının zərurətini vurğuladı. Qlobal Bakı Forumunun dünyanın gələcəyinin konturlarını cızmağa qadir olduğunu qeyd etdi. Albaniya Prezidenti İlir Meta dünyanın çox mühüm dəyişikliklərlə üzləşdiyini qeyd etdi, Azərbaycan ilə qurulan tərəfdaşlığın zəruri töhfələr verdiyini etiraf etdi. Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Şefik Caferoviç qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklərin aradan qaldırılmasında Qlobal Bakı Forumunun əhəmiyyətini vurğuladı: "Bu forum bir çox ölkədən iştirakçıları bir araya gətirmişdir... Həqiqətən də çox böyük dəyişikliklərin baş verdiyi bir dövrdə yaşayırıq. Qarşımızda bir çox mürəkkəb məsələ vardır... Heç bir ölkə bu çətinliklərin və problemlərin öhdəsindən təkbaşına gələ bilməz. Ona görə inteqrasiyanın vacibliyi göz qabağındadır və siyasətlər məhz buna görə hazırlanmalıdır". Böyük Britaniyanın Baş naziri Tereza Mey tədbir iştirakçılarına ünvanladığı müraciətində bu forumun dünyadakı müxtəlif ölkələr arasında sülhün və əməkdaşlığın təşviqinə yönəldiyini qabardaraq deyir: "Mən bu istiqamətdəki bütün fəaliyyətləri dəstəkləyirəm".

BMT-nin Baş katibi Antoniu Quterreşin foruma müraciətində dünyamızın bir paradoksla qarşılaşdığını - çətinliklər bir-biri ilə əlaqəli olduğu halda onların həllinə yönəlmiş səylərin əlaqəsizliyini etiraf etdi: "Biz insanların qorxu və narahatlıqlarına cavab verən həll yollarını səfərbər etdiyimizi və hamıya yararlı olan ədalətli qloballaşmanı yaratdığımızı göstərməliyik".

Sonuncu Qlobal Bakı Forumu bir daha Azərbaycanın artan nüfuzunu ortaya qoyur, onun yeni siyasi mərkəz kimi formalaşdığını və dünyaya söz demək gücünə qadir olduğunu təsdiq edir.



Bu sırada Azərbaycanın da münaqişələrə çəkilərək bitməyən müharibədə çökməsinə cəhd edən qlobal qüvvələrin sərt təhdidləri aydın görünür. Terrorçu və cinayətkar dəstələrlə ittifaqa gedən erməni siyasi elitası bu fikirdədir ki, demokrat qiyafəsində, xristian təəssübkeşliyindən yaşmaq vurub əbədiyyətə qədər faşist ideologiyasından bəhrələnmək mümkündür. Məşhur fransız yazıçısı, Nobel mükafatı laureatı (1915) Romen Rollanın sözləri yada düşür: "Müharibədən sonuncu çıxış yolu kimi yalnız bankrot dövlətlər iki əllə yapışırlar. Müharibə ağlını itirib uduzan oyunçu üçün sonuncu kart kimidir..." Lakin həqiqət ondan ibarətdir ki, erməni faşist ideologiyası Qafqazda özünü qalib kimi aparmaq cəhdlərində erməni diasporu ilə canbir-qəlbdə yallı getsə də, tez-tez büdrəyir və onun gözləmədiyi yerdə məğlubiyyətlərin uçurumlarına yuvarlanmasına çox qalmayıb...

Ölkəmiz isə antiazərbaycançı qüvvələrin birgə həmlələrini qətiyyətlə dəf edir, öz müstəqil və neytral siyasətini uğurla yeridərək sülhə, əmin-amanlığa, tolerantlığa sədaqətini siyasi yaşam, mövcudluq doktrinası kimi ortaya qoyur. Bu baxımdan martın 14-də Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən VII Qlobal Bakı Forumu xüsusi əhəmiyyəti ilə seçilir və diqqəti cəlb edir. Bu tədbir dünyaya Azərbaycanın xarici siyasətinin yeni modelini təqdim edir, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunu ortaya qoyur.

Prezident İlham Əliyev tədbirdəki nitqində Qlobal Bakı Forumunu müasir dünya siyasətinin aktual məsələlərini müzakirə edən mühüm beynəlxalq platformalardan biri kimi dəyərləndirdi. 55 ölkədən 500-dən çox nümayəndənin iştirak etdiyi tədbirə 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini və 42 sabiq dövlət və hökumət başçısı, görkəmli siyasətçilər, vətəndaş cəmiyyətinin təmsilçiləri, jurnalistlər, alimlər, gənc liderlər qatılmışdı. Belə möhtəşəm intellektual potensialın Bakıda bir araya gəlməsi həm forumun əhəmiyyətini, həm də Bakının artan siyasi nüfuzunu əks etdirir. Artıq dünya düzənində aydın görünəni odur ki, Bakı dünya xəritəsində nadir və seçilən siyasi mərkəzlərdən birinə çevrilir, Şərqin Cenevrəsi kimi dünyada baş verən proseslərə müstəqil, qərəzsiz və neytral qiymət vermək gücündədir.

Azərbaycan dəyişməyən, sabit xarici siyasət yeridir. Regionda, dünyada vəziyyət mürəkkəb olsa da, bizim xarici siyasətimiz maraqlarımıza, qarşılıqlı faydalı əməkdaşlığa, təhlükəsizliyə və ölkələrlə yaxın əlaqələrin qurulmasına köklənir, ənənəvi əlaqələrimiz regional təhlükəsizliyi təmin edir.



Ermənistanın siyasi elitası onun fərqində deyil ki, işğalçı rejim kimi iflasa uğrayaraq itirilməli nələri vardısa, hamısından məhrum oldular.

Azərbaycan isə bu müddət ərzində ərazilərinin işğal olunmasına baxmayaraq, bütün dünyaya tolerant, sülhsevər və sivil dövlət olduğunu sübut edə bildi. Bakıda keçirilən saysız-hesabsız beynəlxalq forumlar, möhtəşəm idman yarışları Azərbaycanın imicini sülhsevər ölkə kimi gücləndirdi. Sivil dünyanın gözündə monoetnik, işğalçı faşist dövləti - Ermənistan faciələrin məngənəsində boğulduqca Azərbaycan məşhurlaşır, islahatlar həyata keçirir, Bakı mədəniyyət mərkəzi kimi şöhrət qazanır. Artıq Bakını ən böyük güc mərkəzləri də bir çox beynəlxalq məsələlərin həllində neytral vasitəçi kimi görürlər. Bakının Türkiyə ilə Rusiya arasındakı gərginliklərin azalmasında rolu bir daha ölkəmizin bölgədə və dünyada sülhə xidmət etdiyini isbatladı. Artıq dünya mətbuatında Azərbaycanın neytral ölkə kimi ən uğurlu məkan, burada ən mürəkkəb danışıqların aparılması üçün ideal mühit olması etiraf edilir.

Hələ bir neçə il əvvəl beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Peter Tase bildirmişdi ki, NATO və Rusiya silahlı qüvvələrinin təmsilçilərinin Bakıda baş tutan görüşləri Azərbaycanın sülhə və xalqlar arasındakı dialoqa verdiyi töhfələrin davamıdır: "Bakı hazırda son onilliklərdə böyük və çoxtərəfli razılaşmaların müzakirə edildiyi istənilən Avropa şəhəri qədər əhəmiyyət daşıyır".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Kanada Snoudeni gizlətmiş qadına sığınacaq verdi

Kanada ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) və Milli Təhlükəsizlik Agentliyinin (MTA) sabiq əməkdaşı Edvard Snoudenə onun Honq Konqa gizlənməkdə kömək etmiş Filippin vətəndaşı, 42 yaşlı Vanessa Rodelə və 7 yaşlı qızı Keanaya qaçqın statusu vermişdir. Bu barədə "CBC News" telekanalı xəbər verir.



Məlumata görə, Rodel 2013-cü ildə öz mənzilində Snoudeni gizlətmişdir.

2002-ci ildə Vanessa Rodel Filippindən Honq Konqa gəlmiş və orada qaçqın statusu almaq üçün müraciət etmişdir. Lakin o, hökumətdən rədd cavabı almışdır.

Dünən Kanadanın Toronto şəhərində Rodel jurnalistlərə bildirmişdir ki, "özünü çox rahat və azad hiss edir".

Kanadanın xarici işlər naziri Xristya Friland bu məlumata şərh verməmişdir.

Xatırladaq ki, Rusiyada mühacir həyatı yaşayan Edvard Snouden 2013-cü ildə məxfi sənədlər dərc etmişdir. Həmin sənədlərə görə, MTA ABŞ-ın bütün internet provayderlərinin şəxsi məlumatlarını əldə edir və məhkəmənin icazəsi olmadan şəbəkədəki əcnəbi vətəndaşların yazışmalarını oxuya bilir. Bundan əlavə, məlum olmuşdur ki, MTA-nın ABŞ-ın xaricdəki diplomatik nümayəndəliklərində yaratdığı məxfi şöbələr əcnəbi dövlətlərin hökumət binalarında danışıqlara qulaq asırmış.

Snoudenin aşkarladığı sənədlər, həmçinin sübuta yetirmişdir ki, ABŞ Böyük Britaniya kəşfiyyatı ilə birgə bütün dünyada dinləmələr həyata keçirir.

## Türkiyədə 13 əsr yaşı olan Tövrat nüsxəsi müsadirə olundu

Türkiyənin təhlükəsizlik xidmətinin əməkdaşları Afyonkarahisar vilayətində 1300 yaşı olan Tövrat nüsxəsini müsadirə ediblər. Bu barədə "Anadolu" agentliyi xəbər verir.



Məlumata görə, türkiyəli polis əməkdaşları yəhudilərin müqəddəs kitabının ən qədim nüsxələrindən birini adı açıqlanmayan şəxsin avtomobilini yoxladıqları zaman aşkar ediblər.

Türkiyə Milli Təhlükəsizlik Xidmətinin göstərişi ilə avtomobil sahibinin və həbs edilmiş daha 5 nəfərin adları gizli saxlanılır.

Dəridən olan səhifələrdə yazılmış mətni və qalın üzlüyü olan kitabın dəyərinin milyonlarla dollar olduğu bildirilir.

## Britaniya hökuməti Brexitin ləğvi ilə bağlı petisiyanı dəstəkləmədi

### Tereza Mey istefa verməyə hazırdır

Böyük Britaniya hökuməti artıq 5,8 milyon nəfərin imzaladığı, Brexitdən imtina barədə petisiyanı şərh etmişdir. Hökumətin rəsmi bəyanatında deyilir ki, 2016-cı ildə keçirilmiş referendumun nəticələrindən geri çəkilməyəcək və Avropa İttifaqından çıxmaq haqqında sazişin imzalanması məsələsində parlamentlə işbirliyini davam etdirəcək. Bu barədə RBK agentliyi xəbər verir.



Nazirlər Kabinetinin müraciətində qeyd olunur ki, nazirlər petisiyanı imzalamış milyonlarla fəalın iradəsinə hörmətlə yanaşır, lakin həm də referendumda Aİ-dən çıxmağın lehinə səs vermiş ölkə vətəndaşlarının iradəsini nəzərə alır. Referendumda Brexitin lehinə 17,4 milyon səs verilmişdir. Hökumətin fikrincə, Brexitdən imtina Britaniya xalqına verilmiş vədlərin pozulması və demokratik seçimə hörmətsizlik olar.

Britaniya qanunlarına görə, aprelin 1-də petisiya ölkə parlamentinin müzakirəsinə veriləcək.

Son məlumata görə, Böyük Britaniyanın Baş naziri Tereza Mey parlament tərəfindən Brexit sazişi qəbul olunacağı təqdirdə vaxtından əvvəl istefaya getməyə hazır olduğunu bildirmişdir.

## Argentinanın sabiq prezidenti həbs cəzası aldı

Argentinanın eks-prezidenti Karlos Menem maliyyə fırıldaqçılığına görə 3 il 9 ay müddətinə həbs cəzasına məhkum edilmişdir. Bundan əlavə, 88 yaşlı Menemə dövlət vəzifələri tutmaq qadağan olunmuşdur. Bu barədə "Nacion" portalı xəbər verir.



Xatırladaq ki, 2013-cü ilin yayında sabiq prezident Menem 1990-cı illərdə Xorvatiya və Ekvadora silah qaçaqmalçılığı işi üzrə təqsirli bilinərək 7 il həbs cəzası almışdır. Lakin o, həmin vaxt senator olduğundan cəzasını çəkməmişdir. Məhkəmənin qərarı 2018-ci ildə ləğv edilmişdi.

Karlos Menem 1989-1999-cu illərdə Argentinanın prezidenti vəzifəsini tutmuşdu.

## Qvatemalada dəhşətli faciə baş verdi

Qvatemalada yük maşınının camaatın üstünə sürülməsi nəticəsində 32 nəfər, o cümlədən uşaqlar həlak olmuşdur. 26 nəfər müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanalara çatdırılmışdır. Bu barədə "Prensa Libre" qəzeti xəbər verir.



Məlumata görə, hadisə Nauala bələdiyyəsində baş vermişdir.

Qvatemala Prezidenti Cimmi Morales həlak olanların ailələrinə başsağlığı vermişdir.

Faciə ilə əlaqədar ölkədə üçgünlük matəm elan olunmuşdur.

## Qazaxıstanda helikopter qəzaya uğradı

Qazaxıstanın yeni Prezidenti Kasım-Jomart Tokayev Qızıl Orda vilayətində Müdafiə Nazirliyinə məxsus Mi-8 helikopterinin qəzaya uğramasını təsdiq etmişdir. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.



Ölkə rəhbərinin dediyinə görə, təlim uçuşu Aktau-Şımkent marşrutu üzrə keçirmiş. Helikopterin bütün heyət üzvləri - 13 nəfər həlak olmuşdur.

Tokayev faciənin səbəblərinin təhqiqatına başlanması barədə tapşırıq vermişdir. O, həlak olanların ailələrinə başsağlığı vermiş və onlara maddi yardım olunacağını vəd etmişdir.

Təhqiqatı müdafiə və daxili işlər nazirlikləri aparacaq.

# “Azərsu” ASC siyirtmələrin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs Ağaəli Mirzəyevdən, 431-47-67/2246) ala bilərlər.

Hər bir LOT üzrə iştirak haqqı 200 manatdır.

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **17 may 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 may 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# “Azərsu” ASC sayğac qutularının satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs Məmmədyar Musayevdən, 431-47-67/2288) ala bilərlər.

Hər bir LOT üzrə iştirak haqqı 200 manatdır.

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **17 may 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 may 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Ukrayna Xarici İşlər Nazirliyi vətəndaşlarına Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri qadağan edib

Azərbaycanın Ukraynadakı səfirliyinin səyləri nəticəsində Ukrayna Xarici İşlər Nazirliyinin rəsmi saytında Ukrayna vətəndaşları üçün Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə giriş qaydaları ilə bağlı məlumat yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, xəbərdarlıq məlumatında Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonuna (Ağdam, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli) qanunsuz səfərlərin qəti qadağan olunduğu vurğulanır. Bildirilir ki, həmin ərazilərə yalnız Azərbaycanın rəsmi qurumlarının icazəsi ilə səfər etmək mümkündür. Əks halda, qanunu pozan ukraynalılar Azərbaycan üçün “persona non-qrata” elan ediləcək və ölkəyə buraxılmayacaqlar.

Bundan başqa, Ukrayna XİN bəyan edir ki, Azərbaycan hökumətinin icazəsi olmadan qeyd olunan ərazilərdə hər hansı hüquqi və fiziki şəxsin kommersiya işi ilə məşğul olması da qəti qadağandır.

# “STP-3 Metaləritmə” zavodunda baş verən partlayışla bağlı istintaq-əməliyyat tədbirləri davam etdirilir

Sumqayıt şəhəri ərazisində yerləşən “STP-3 Metaləritmə” zavodunda martın 22-də partlayışın baş verməsi ilə bağlı daxil olan məlumat əsasında şəhərin polis və prokurorluq əməkdaşlarının iştirakı ilə dərhal hadisə yerinə baxış keçirilib və digər təxirəsalınmaz zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Sumqayıt Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, ilkin araşdırmalarla həmin gün saat 13 radələrində zavodun poladəritmə sexində metalın əriyib sobanın soyutma radiatoruna toxunması nəticəsində partlayışın baş verməsi müəyyən edilib.

Hadisə nəticəsində fəhlələr Mürşüd Məmmədov, Vüqar Cəlilov, Ceyhun Qaraşov və sex rəisi Minyaz Seyidəliyev müxtəlif dərəcəli yanıq xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər. Martın 27-də Minyaz Seyidəliyev aldığı xəsarətlərdən müalicə olunduğu xəstəxanada vəfat edib.

Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb və müvafiq ekspertizalar təyin olunub.

Hadisənin başvermə səbəbləri və təqsirkar şəxslərin müəyyənləşdirilib cinayət məsuliyyətinə cəlb olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

*Təkrar*

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tender elan edir*

**Tender 3 LOT üzrə keçirilir.**

**LOT 1:** 5 km TSV-100x2x0,5 kabelinin, 1500 km PKSV-1x2x0,5 naqilinin satın alınması
**İştirak haqqı: 600 (altı yüz) manat**

**LOT 2:** 520 (beş yüz iyirmi) ədəd müxtəlif güclü kondisionerlərin satın alınması
**İştirak haqqı: 1500 (bir min beş yüz) manat**

**LOT 3:** 3000 ədəd daxili qurğu ilə xarici antena tipli LTE modemlərinin satın alınması
**İştirak haqqı: 2000 (iki min) manat**

Tenderdə yerli və xarici hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 (əlaqələndirici şəxs: Faiq Mustafayev, tel.: 012 344-00-00 (372); e-mail: faiq.mustafayev@aztelekom.az ünvanından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəhəri, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük “Əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **22 aprel 2019-cu il tarixinə qədər (saat 17:00-dək)**, tender təklifini və tender təklifinin bank təminatını isə **30 aprel 2019-cu il tarixinə qədər (saat 17:00-dək)** Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanına (“Aztelekom” MMC-nin Tender komissiyasına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **01 may 2019-cu il tarixdə (saat 11:00-da)** Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanında - “Aztelekom” MMC-nin inzibati binasında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# “Azərişıq” ASC 2019-cu ildə tələb olunan MP 106 markalı 1 fazalı smart kart tipli sayğacların satın alınması məqsədilə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
**LOT-1**
MP 106 markalı 1 fazalı smart kart tipli sayğacların satın alınması - 400 manat

**“Azərişıq” ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 aprel 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **24 aprel 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 aprel 2019-cu il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

“Sumqayıt Kimya Sənaye Parkı” MMC tərəfindən Sumqayıt Kimya Sənaye Parkının 167.66 hektar və 94.13 hektar ərazilərində inşa olunmuş 110/35/6 kV-luq yarımstansiyalara, daxili elektrik verilişi xətlərinə, paylama mərkəzi və transformator məntəqələrinə, eyni zamanda rezidentlərin fəaliyyətinin təmin olunması üçün inşa olunmuş daxili və xarici kommunikasiya xətlərinə, həmçinin Peşə Tədris Mərkəzinə, o cümlədən qazanxanaya texniki xidmətlərin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Təkliflər sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən “İMA-ENERGY” MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi elmi işlər üzrə direktor müavini Cəbi Bəhramova əzizi

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan-Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri Cemal Yangına anası

**ZENNURE YANGININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan-Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri Cemal Yangına anası

**ZENNURE YANGININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyi və kollektivi Sadıqovlar ailəsinə əzizləri

**ÜMÜSÜN SADIQOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8567
Sifariş 1016
Qiyməti 40 qəpik